

## Dekabrın 14-də

### Bakıya qar yağacaq

**Bakıda və Abşeron yarımadasında dekabrın 12-si axşamdan 13-ü səhərədək arabir yağış yağacağı, 14-də yağışın bəzi yerlərdə sulu qara keçəcəyi gözlənilir.**

Yağıntıların yarımadanın ayrı-ayrı yerlərində qısamüddətli intensiv olacağı ehtimalı var.

Bu barədə Milli Hidrometeorologiya Xidmətinin Proqnozlar Bürosunun direktoru Gülşad Məmmədova açıqlama verib.

O qeyd edib ki, Azərbaycanın rayonlarında da dekabrın 12-si günün ikinci yarısından Şimal və Qərb rayonlarından başlayaraq bəzi ərazilərdə arabir yağıntılı olacağı, dağlıq və dağətəyi rayonlarda isə qar yağacağı gözlənilir, ayrı-ayrı yerlərdə yağıntının intensiv olacağı ehtimalı var. ”Dekabrın 13-ü gündüz yağıntıda fasilə yaransa da qeyri-sabit, yağıntılı hava şəraitinin 14-ü gündüzədək davam edəcəyi gözlənilir.”



## Rusiya ordusu Zaporojyeni bombalayıb, 9 nəfər ölüb

**Zaporojyeyə raket hücumu nəticəsində ölənlərin sayı 9 nəfərə çatıb.**

APA-nın ”Unian”a istinadən məlumatına görə, bunu vilayətin Administrasiya rəhbəri İvan Fyodorov açıqlayıb. O bildirib ki, son olaraq xəstəxanada müalicə alan 74 yaşlı zərərçəkən həkimlərin müdaxiləsinə baxmayaraq, vəfat edib.


№ 228 (6229) 2024-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 12 dekabr 2024-cü il (cümə axşamı)





## Messi Bakıdan məmnun qaldı

### “Azərbaycanın zəngin mədəniyyəti ilə tanış olmaq imkanı qazandım”

**”Bakıya səfərimdə Azərbaycanın zəngin mədəniyyəti ilə tanış olmaq imkanı qazandım”.**

Bunu Bakı Kristal Zalında fanatları ilə görüşü zamanı əfsanəvi futbolçu Lionel Messi deyib.

”Mən öz komanda yoldaşlarım adından bu görüşün təşkilinə görə hər kəsə təşəkkür edirəm”, - futbolçu vurğulayıb.

*Qeyd edək ki, ABŞ-nin ”İnter Miami” futbol klubunun əfsanəvi oyunçusu Lionel Messi və komanda yoldaşları Luis Suarez, Serxio Buskets (Sergio Busquets) və Xordi Alba (Jordi Alba) Bakıda səfərdədirlər.*



## Messi Heydər Əliyevin məzarını ziyarət etdi

### Dünya ulduzları ümummilli liderin məzarı önünə əklil qoyublar

**Azərbaycanda səfərdə olan futbol əfsanəsi Lionel Messi və dünya ulduzları Luis Suares, Serxio Buskets və Xordi Alba Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib, xatirəsini anıblar.**

Onlar ümummilli liderin məzarı önünə əklil qoyublar.

## Rusiya vətəndaşlarını ABŞ-yə səfər etməməyə çağırdı



**Rusiyanın Xarici İşlər Nazirliyi vətəndaşlarını ABŞ-yə səfər etməkdən çəkinməyə çağırıb.**

Trend xəbər verir ki, bu barədə Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova həftəlik brifinqdə danışıb. O qeyd edib ki, buna səbəb rusiyalıların həmin ölkədə saxlanılması riskinin mövcud olmasıdır.

”Rusiyalılar Amerikanın hakimiyyət və xüsusi xidmət orqanları üçün ov obyektinə çevriliblər. Ölkə vətəndaşlarına, həmçinin ABŞ ilə müttəfiq olan Avropa İttifaqı, Kanada kimi ölkələrə də səfər etməmək tövsiyə edilir”, - XİN rəsmisi qeyd edib.

# Liderlər hazırlıqlıdır

## Türkiyə və Azərbaycan Suriya siyasətində birgə addımlayacaq





Tezliklə Yaxın Şərq regionunda tam yeni geosiyasi reallıqlar formalaşacaq

**Bəşər Əsəd rejiminin devrilməsindən sonra Suriyada yaşananlar Azərbaycan ictimaiyyəti tərəfindən də diqqətlə izlənməkdədir.**

Azərbaycan Xarici İşlər Nazirliyi Suriyada son vəziyyətlə bağlı bəyanatında bildirib ki, bu çərçivədə qardaş Türkiyə ilə məsləhətləşmələr həyata keçirilir.

Vurğulanıb ki, Suriyada Bəşər Əsəd rejiminin çökməsindən sonra ölkədə sülhün və sabitliyin bərpa olunması və vətəndaş qarşıdurmasına son qoyulması mütləq dərəcədə vacibdir. Azərbaycan Suriyanın ərazi bütövlüyü və suverenliyinə dəstəyini bir daha ifadə edir.

(səh.4)

# Başqa heç bir variant yoxdur

İranın və Ermənistanın nə istəməsindən asılı olmayaraq, Zəngəzur dəhlizi açılacaq




**“Sadəcə, Cənubi Qafqaz regionundan deyil, eyni zamanda Livan, İsrail, Suriya və İraq ərazisindən keçəcək kommunikasiyaların tədricən işə düşəcəyi ehtimalı yüksəkdir”.**

*Bu barədə Bakı Politoloqlar Klubunun sədri, siyasi elmlər namizədi Zaur Məmmədov deyib. Ekspert bildirib ki, Yaxın Şərqdə müharibələrin, qarşıdurmaların əsas səbəblərindən biri budur:* ”Suriyada başlayan savaş, sadəcə, vətəndaş müharibəsi deyildi. Həm də kommunikasiya, geosiyasət və iqtisadiyyat uğrunda mübarizə idi. 44 günlük müharibənin nəticəsi kimi Cənubi Qafqaz bölgəsində də yeni proseslərin şahidi olmaqdayıq.

(səh.3)



## Bəşər Əsədin atasının məzarı yandırıldı

**Suriyada Baas rejimindən sonra xaos davam edir. Bir qrup müxalifətçi Bəşər Əsədin atası, keçmiş prezident Hafiz Əsəd və ailəsinin dəfn olunduğu məqbərəni yandırıb.**

Fransanın AFP xəbər agentliyi törətdiyi qətliamlarla Suriya xalqının yaddaşına həkk olunan Bəşər Əsədin atası Hafiz Əsədin məzarının yandırılmasının görüntülərini nümayiş etdirib. Görüntülərdə silahlı şəxslərin Qardaha şəhərində yerləşən məqbərəni yandırıqdan sonra ətrafında dövrə vuraraq şüarlar səsləndirdikləri görünür. Ailə məzarlığında Hafiz Əsədlə birlikdə həyat yoldaşı Anisə və böyük oğlu Bazil də dəfn edilib.

## Rusiyada rus dilini bilməyən miqrant uşaqları məktəblərə qəbul edilməyəcək




**Rusiya Dövlət Dumasında rus dilini bilməyən miqrant uşaqlarının məktəblərə qəbulunu qadağan edən qanun layihəsinə baxılıb.**

APA-nın Moskva müxbiri xəbər verir ki, duma rus dilini bilməyən miqrant uşaqlarının məktəblərə qəbulunu qadağan edən qanunu üçüncü oxunuşda qəbul edib.

Qanun lehinə 409 deputat, əleyhinə isə bir deputat səs verib. Rus dili bilikləri olmayan miqrant uşaqlarının məktəblərə qəbuluna qadağa qoyan qanunun əleyhinə səs verən deputatın Vahid Rusiya partiyasından olan ermənipərəst Konstantin Zatulin olduğu məlum olub.

## Müəllimlərə şirniyyat, şokolad hədiyyəsi

### Ekspert: “Yeni trendi normal saymıram, lakin buna da şükür”



Son günlər istər ümumtəhsil müəssisələri, istərsə də ali təhsil məktəblərində şagird və tələbələrin sevimli müəllimlərinə şirniyyat, şokolad verməleri ilə bağlı yeni trend başladılıb. Sosial şəbəkələrdə paylaşılan müxtəlif videolara yanaşmalar da birmənalı deyil.

(səh.7)



## Ən çox qazanan dövlət İsraildir

Türkiyənin Suriyadakı rejim dəyişikliyindən qazanclı çıxıb-çıxmayacağını isə zaman göstərəcək

(səh.5)



## Əsədin getməsi ilə "qızıl halqa" qırıldı

İranın proksi qüvvələrdən ibarət “müqavimət oxu”nda dağılma prosesi başlandı

(səh.3)



# İlham Əliyev AIPAC-ın prezidentini və yeni seçilmiş prezidentini qəbul edib

## Maykl Tuçin və Bernard Kaminetski Azərbaycanda yəhudi icmasına yaradılan şəraitə görə minnətdarlıqlarını ifadə ediblər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Amerika İsrail İctimai Əlaqələr Komitəsinin (AIPAC) prezidenti Maykl Tuçini və Komitənin yeni seçilmiş prezidenti Bernard Kaminetskini qəbul edib.**

Qəbula görə minnətdarlıqlarını bildirən Maykl Tuçin və Bernard Kaminetski dövlətimizin başçısı ilə əvvəlki görüşlərini məmnunluqla xatırlayıblar. Onlar Azərbaycanda mövcud olan dinlər və mədəniyyətlər arasındakı dialoqun, ölkəmizdə müxtəlif dini konfessiyaların, etnik qrupların nümayəndələrinin qarşılıqlı hörmət və harmoniya şəraitində yaşamalarının bütün dünya üçün nümunə olduğunu vurğulayaraq, dövlət səviyyəsində aparılan bu siyasətə görə Prezident İlham Əliyevə təşəkkür ediblər.

Qonaqlar ölkəmizə səfər çərçivəsində Quba rayonunda, Qırmızı Qəsəbədə olduqlarını deyiblər və qeyd ediblər ki, bu qəsəbənin özünün mövcudluğu, onun inkişafı, orada yaradılmış nadir yəhudi muzeyi də dünya üçün bir nümunədir.

Maykl Tuçin və Bernard Kaminetski, həmçinin Azərbaycanda yəhudi icmasının fəaliyyəti və dini ayinlərini həyata keçirməsi üçün yaradılan şəraitə, yəhudi ibadət ocaqlarına dövlət səviyyəsində göstərilən qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

Dövlət başçısı da öz növbəsində qeyd edib ki, Azərbaycanda müxtəlif dini və etnik konfessiyaların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşamaları xalqımızın həyat tərzidir və əsrlər boyu ölkəmizdə bu cür harmonik abhava mövcud olub. Prezident İlham Əliyev vurğulayıb ki, bütün bunlar, eyni zamanda, Azərbaycanda həyata keçirilən dövlət siyasətinin tərkib hissəsidir və dövlət siyasəti çərçivəsində dəstəklənir.

Dövlət başçısı Azərbaycanın dinlər və mədəniyyətlər arasında dialoq prosesinə beynəlxalq səviyyədə ciddi töhfə verdiyini və Bakının bu xüsusda aparılan müzakirələrin ev sahibi olduğunu qeyd edib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Suriya böhranının həllində Türkiyə amili

## Azərbaycan qardaş ölkə ilə birgə sülhə səy göstərəcək



**Ötən gün Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə xarici işlər naziri Hakan Fidan arasında telefon danışığı baş tutub.**

XİN-dən verilən xəbərə görə, telefon danışığı zamanı Azərbaycan-Türkiyə müttəfiqliyindən irəli gələn məsələlər, post-münaqişə dövründə bölgədə vəziyyət, Yaxın Şərqdə, xüsusilə Suriyada mövcud vəziyyət, habelə digər regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Tərəflər ATƏT-in Nazirlər Şurasının Maltada keçirilən 31-ci iclası çərçivəsində aparılan danışıqlar və müzakirələr ətrafında fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov təcrübəli türk diplomatı olan Feridun Sinirlioğlunun ATƏT Nazirlər Şurasının 31-ci iclası çərçivəsində Təşkilatın baş katibi vəzifəsinə təyinatı münasibətilə Türkiyə tərəfini təbrik edib, bu böyük nailiyyətin tərəfimizdən böyük sevinclə qarşılandığını diqqətə çatdırıb. ATƏT-in baş katibi Sinirlioğluna məsuliyyətli fəaliyyətində uğurlar arzulanıb.

Telefon danışığı çərçivəsində tərəflər, həmçinin regional məsələlər, Suriyada son vəziyyəti ətraflı müzakirə ediblər.

Azərbaycanın Suriyanın ərazi bütövlüyü və suverenliyinə dəstəyi, habelə yaranmış böhranlı vəziyyətin tezliklə Suriya xalqının maraq və iradəsinə əsaslanan həllini tapmasına dair ümidvarlıq ifadə olunub.

Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və çoxtərəfli məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Bəşər-Əsəd rejiminin devrilməsi ilə Suriyada "Ermənistanın havası" alındı. Artıq bölgədə Türkiyənin üstünlüyü və aktivliyinin şahidi oluruq. Digər tərəfdən, Türkiyə ilə geniş əməkdaşlıq çərçivəsində Azərbaycanın da Suriyanın ərazi bütövlüyü və suverenliyinə dəstəyi gözləniləndir.

**Yaxın Şərq üzrə ekspert Vüqar Zifəroğlu "Şərq"ə bildirib ki, Suriya münaqişəsi 2011-ci ildən bəri Yaxın Şərqdə geosiyasi balansı dəyişdirən mühüm proseslərdən biri olaraq qalır:** "Əsəd rejiminin süqutundan sonra bölgədəki qüvvələrin yenidən formalaşması ehtimalı Azərbaycan və Türkiyəni də bu prosesin bir hissəsi olmağa vadar edir. Hər iki ölkə regionda strateji mövqeyə malikdir. Həmçinin onların əməkdaşlığı Suriyada sabitlik və inkişafın təmin edilməsində əhəmiyyətli rol oynaya bilər. Türkiyə Suriyada ilk gündən aktiv siyasət yürüdərək münaqişədə əsas oyunçulardan birinə çevrilib. Ölkə terror təşkilatlarının qarşısını almaq məqsədilə sərhədyanı ərazilərdə əməliyyatlar aparıb. Həmçinin qaçqın böhranı ilə mübarizədə ön sıradadır. Suriyanın yenidən qurulmasında iştirak etməyi planlaşdırır. Bundan başqa, Türkiyə, Suriya və İran üçtərəfli əməkdaşlığı vasitəsilə bölgədə sabitliyin təmin edilməsində çox ciddi şəkildə öz töhfələrini verib. Əsəd rejimindən sonrakı dövrdə isə Türkiyə daha geniş təsir imkanları qazanaraq Suriyanın mərkəz və şimal hissələrində sabitliyin əldə edilməsində mühüm rol oynaya bilər. Ümumiyyətlə, Türkiyə Suriyanın yenidən şəkillənməsində olduqca ciddi söz sahibinə çevrilmiş bir durumdadır".

**Ekspertin fikrincə, Azərbaycan Suriya münaqişəsində birbaşa iştirak etməsə də, Əsəd rejiminin süqutundan sonra bölgədə əsas oyunçu kimi çıxış edə bilər:** " Suriya kontekstində Azərbaycan-Türkiyə əməkdaşlığı yeni bir sinerjinin yaradılması kimi qiymətləndirilməlidir. Azərbaycanın təcrübəsi və resursları Suriyanın enerji və nəqliyyat infrastrukturunun bərpasında vacib ola bilər. Həmçinin başqa bir məqam beynəlxalq vasitəçilik missiyasıdır. Azərbaycan beynəlxalq təşkilatlarda mövqeyindən istifadə edərək Suriya böhranının siyasi həllinə dəstək göstərə bilər. Nəzərə almaq lazımdır ki, münaqişədə bu və ya başqa dərəcədə maraqlı və iştirak edən qüvvələr var. Bu qüvvələrdən Azərbaycanla müsbət əlaqələri olan tərəflər də mövcuddur. Eyni zamanda Azərbaycanın beynəlxalq vasitəçilik missiyasında kifayət qədər ciddi təcrübəsi var. Həmçinin etibarlı tərəfdaş kimi nüfuz qazanıb. Türkiyə ilə sıx əməkdaşlıq Azərbaycana təsir gücünü artırır. Üstəlik, regional sabitliyə öz töhfələrini verə bilər. Əsəd rejiminin sonu Yaxın Şərqdə yeni bir mərhələnin başlanğıcı olaraq Azərbaycan və Türkiyənin birgə fəaliyyəti regionda siyasi və iqtisadi sabitliyin təmin edilməsində əsas faktor kimi çıxışı mümkündür. Bu əməkdaşlığın təkcə iki ölkə arasında deyil, həm də geniş beynəlxalq miqyasda müsbət nəticələr doğuracağı şübhəsizdir".

**Aynur Babazadə**

# Xərclənən milyardlarla dollar boşa getdi

## İrandan Aralıq dənizi sahilinə uzanan "şiə ayparası" dağılıb

**Suriyada strateji səviyyədə qazanan tərəf İsraildir. Səddam Hüseyn rejiminin məhvindən sonra İsrailə birbaşa təhdid yaradan daha bir ərəb rejimi çökdürüldü. Bu sözləri Suriyada baş verən proseslər və Bəşər Əsəd rejiminin devrilməsini şərh edən siyasi şərhçi Şahin Cəfərli deyib.**




Onun sözlərinə görə, Suriyada bundan sonra nələr ola biləcəyini təxmin etmək üçün İraqda 2003-cü ildəki ABŞ işğalından sonra baş verənlərə nəzər salmaq lazımdır: "Bənzər model Suriyada da tətbiq oluna bilər. İsrail xarici işlər naziri də məhz buna - federallaşmaya işarə edərək kürd faktorunun vacibliyini xüsusi vurğulayıb. Hələlik dəqiq bilinən budur ki, İraqdakı kimi, Suriyada da güclü mərkəzi hökumət mövcud olmayacaq.

İsrail hazırda Suriya ərazisində demilitarizasiya (Əsəd ordusunun bütün silah-sursat və hərbi texnika ehtiyatının məhvi) tədbirləri həyata keçirməklə bu hərbi potensialın istər yeni hökumətin, istərsə də ayrı-ayrı qrupların əlinə keçməsi ehtimalını aradan qaldırır. İsrail boşluqdan yararlanaraq Qolan təpələrində 1974-cü ildə razılaşdırılmış bufer zonasını, xüsusən Şamın ovuc içi kimi göründüyü strateji əhəmiyyətli Hermon dağını da nəzarətə götürüb. Bu da Suriyada istənilən perspektivə qarşı özünü sığortalamaq deməkdir".

**Siyasi şərhçinin sözlərinə görə, Əsədin devrilməsi ilə İranın İraq və Suriya üzərindən Livana açdığı quru dəhlizi kəsilmiş oldu. İrandan Aralıq dənizi sahilinə uzanan "şiə ayparası" dağılıb:** "Xərclənən milyardlarla dollar, verilən itkilər boşa çıxmış oldu. Suriyanı itirən İranın bölgədəki qol-budaqlarının doğranması davam edəcək. "Hizbullah"ın darmadağın edilməsindən sonra növbənin Yəmən və İraqdakı "Ənsərullah" və "Haşdi Şabi" qruplaşmalarına çatdığını söyləmək mümkündür. Diplomatik müstəvidə hər hansı anlaşma əldə olunmasa, sonda isə yəqin ki, birbaşa İran özü hədəf alınacaq. Lakin xarici siyasət və təhlükəsizlik sahəsində əldə olunan bu uğurlar İsrail Baş naziri Netanyahunu daxildə hüquqi təqibdən xilas edə bilməyib. Bu gün o, korrupsiya, fırıldaqçılıq və etimaddan sui-istifadə ittihamları üzrə məhkəmə qarşısında şahid qismində ifadə verib. Vəkillərin prosesin təxirə salınması barədə vəsatətini rədd edən hakimlər baş nazirin həftədə 3 dəfə məhkəməyə gəlib ifadə verməsi barədə qərar qəbul ediblər".

**Şəymən**

# Bundan sonra strateji hədəflər də bir olacaq

## Türkiyə-Azərbaycan qardaşlığı tarixin ən yüksək səviyyəsindədir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğana zəng edib. Bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb. Söhbət zamanı dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin strateji müttəfiqlik zəminində inkişaf etdiyini bir daha vurğulayıblar.**




Dövlətimizin başçısı Prezident Rəcəb Təyyib Ərdoğan və Əminə xanım Ərdoğanın Azərbaycanda keçirilmiş COP29 konfransının liderlər sammitində fəal iştirakını məmnuniyyətlə qeyd edərək, geniştərkibli Türkiyə nümayəndə heyətinin konfransın işinə əsaslı töhfələr verdiyini vurğulayıb. Prezident Rəcəb Təyyib Ərdoğan öz növbəsində COP29-un uğurla keçirilməsi və danışıqlar prosesində əldə olunmuş nəticələr münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırıb. Telefon danışığı əsnasında Cənubi Qafqaz və Yaxın Şərq regionuna aid məsələlərə toxunulub, xüsusilə Suriyada Əsəd rejiminin çökməsindən sonra yaranmış vəziyyət müzakirə olunub. Dövlət başçıları bu münasibətlə Suriya xalqına təbriklərini, Suriya dövlətinin ərazi bütövlüyünə və suverenliyinə dəstəklərini ifadə ediblər. Prezident İlham Əliyev bundan sonra Türkiyənin yaxın dəstəyi ilə Suriyada sabitlik dövrünün başlayacağına ümidvar olduğunu bildirərək Azərbaycanın qardaş Türkiyə ilə birlikdə Suriya xalqının üzləşdiyi humanitar problemlərin aradan qaldırılmasına dəstək verməyə hazır olduğunu qeyd edib. Prezident Rəcəb Təyyib Ərdoğan bütün sahələrdə olduğu kimi Suriya xalqına humanitar yardım və dəstək məsələsində də Azərbaycan və Türkiyənin birgə fəaliyyət göstərəcəyini məmnuniyyətlə qeyd edib. Söhbət əsnasında Azərbaycan və Türkiyə arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

**Türkiyənin Azərbaycandakı keçmiş hərbi attaşesi, ehtiyatda olan general Yücel Karauz "Şərq"ə bildirib ki, Türkiyə və Azərbaycan arasındakı əlaqələr Şuşa Bəyannaməsi ilə strateji müttəfiqlik vəziyyətinə gəlib:** "İki dövlət və bir millətin övladları ölkə olaraq strateji müttəfiqlik halına gələrkən cənab Prezident İlham Əliyev və sayın cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan əsl qardaş oldular. Dolayısı ilə həm şəxsi, həm də dövlətlərarası qardaşlıq tarixin ən yüksək səviyyəsindədir. İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın getdiyi yol Şuşa Bəyannaməsinin və Türk Dövlətləri Təşkilatının (TDT) hədəflərinə uyğun olaraq fəaliyyət göstərir. Hər iki dövlətin başçısı tez-tez regional və qlobal mövzuları müzakirə edirlər. Təbii ki, Azərbaycanın uğurla yürütdüyü fəaliyyətlər çərçivəsindəki COP29 çox böyük naliyyətlərə səbəb oldu və dünyaya səs saldı. Türkiyə və Azərbaycan bölgədən kənar mövzulara da beynəlxalq insan haqları baxımından eyni perspektivdən baxırlar. Ona görə də Suriyada meydana gələn və normallaşma yolundan gedən hadisələrə, iqtisadi inkişafa humanitar yardımlar mövzusunda da Azərbaycan və Türkiyə birgə əməkdaşlıq edəcək. Eyni zamanda Azərbaycan-Ermənistan əlaqələri və Cənubi Qafqaza sülhün gəlməsi üçün iki ölkə liderləri müzakirə etdilər. Liderlər arasında 2025-ci ildə ortaya qoyulan hədəflərin yol xəritəsi bəlli oldu. Azərbaycan-Türkiyə qardaşlığı əbədi, sonsuz və sarsılmazdır. Heç bir qüvvə Azərbaycan-Türkiyə və İlham Əliyev-Rəcəb Tayyib Ərdoğan qardaşlığına zərbə vura bilməz".

**Şahanə**

# Messi Azərbaycana minnətdarlığını ifadə etdi!

## Dünya ulduzlarının iştirakı ilə möhtəşəm bayram təşkil olunub




**Baku Crystal Hall-da dünya ulduzlarının iştirakı ilə möhtəşəm bayram təşkil olunub.**

**Azarkeşlər dünya çempionu, səkkizqat "Qızıl top" mükafatı sahibi Lionel Messi və onun komanda yoldaşları - Luis Suares, Serxio Buskets və Jordi Albaya canlı görmək imkanı qazanıblar.**

Azərbaycanın Xalq artisti Murad Dadaşovun aparıcılığı ilə baş tutan Bayram axşamının açılışında, Xalq artisti Natiq Şirinovun rəhbərliyi altında "Natiq" ritm qrupunun və rəqs kollektivinin iştirakı ilə möhtəşəm Azərbaycan kompozisiyası təqdim olunub.

Sonra qonaqlara dünya şöhrətli fransız DJ, ifaçı və bəstəkar Villi Vilyamın konsert proqramı təqdim olunub. Bu çıxışlar Baku "Crystal Hall"da tamamilə dolmuş tamaşaçıları daha da çoşdurub və hərəkətə gətirib

Daha sonra tamaşaçılara Lionel Messinin həyatına və karyerasına həsr olunmuş sənədli film nümayiş olunub. Film Messinin şəxsi həyatı, qələbələri və uğursuzluqları, sevincli və çətin anları haqqında unudulmaz görüntüləri ilə hər kəsi təsirləndirib. Hətta Messinin səhnəyə çıxmasından əvvəl tamaşaçılar onun adını tərənnüm edibdilər!

Və nəhayət, hamının səbirsizliklə gözlədiyi an gəldi - dünya ulduzları səhnəyə çıxaraq tamaşaçıları alqışlar altında salamlayıbılar. Messi çıxışında o və komanda yoldaşlarının ilk dəfə Bakıya gəldiklərini, ölkənin mədəniyyəti və insanları ilə az da olsa tanış olduqlarını bildirərək, Azərbaycanın göstərdiyi isti qəbul və qonaqpərvərliyə görə dərin minnətdarlığını ifadə edib.

Biletlərin satışından əldə olunan gəlirlərin xeyriyyə məqsədlərinə yönəldiləcəyi açıqlanıb. Tədbirin ən təsirli məqamlarından biri isə sağlamlıq imkanları məhdud uşaqlar, uşaq evlərinin sakinləri və şəhid ailələrindən olan uşaqların səhnəyə çıxması olub. Onlar dünya ulduzlarını görmək, avtoqraf almaq və birgə foto çəkdirmək şansı qazanıblar. Bu, uşaqlar üçün böyük bir sevinc və unudulmaz bir xatirə olub!

Səhnəyə həmçinin, Azərbaycanın bir sıra futbol komandalarının gənc futbolçuları çıxıblar. Onlar təkcə öz kumirlərini görmək deyil, həm də onlarla kiçik ötürmələr etmək, avtoqraf almaq və şəkil çəkmək şansı qazanıblar. İştirakçılar futbol ulduzları ilə maraqlı və unudulmaz anlar keçiriblər.

Tamaşaçılar arasında böyük coşqu doğuran məqam isə dünya ulduzlarının zalda oturanlara avtoqraflı futbol toplarını hədiyyə etməsi olub. Bu dəyərli hədiyyələri alan şanslılar üçün unudulmaz bir an olub!

Axşam məşhur rumın qrupu Morandinin çıxışı ilə sona çatıb. (Trend)

Tədbirin təşkilatçılarına minlərlə futbol və musiqi həvəskarına ən parlaq emosiyalar və unudulmaz təəssüratlar bəxş etdikləri üçün dərin təşəkkür ifadə olunub.



# Liderlər hazırlıqlıdır

## Türkiyə və Azərbaycan Suriya siyasətində birgə addımlayacaq

**Bəşər Əsəd rejiminin devrilməsindən sonra Suriyada yaşananlar Azərbaycan ictimaiyyəti tərəfindən də diqqətlə izlənməkdədir. Azərbaycan Xarici İşlər Nazirliyi Suriyada son vəziyyətlə bağlı bəyanatında bildirib ki, bu çərçivədə qardaş Türkiyə ilə məsləhətləşmələr həyata keçirilir.**

Vurğulanıb ki, Suriyada Bəşər Əsəd rejiminin çökməsindən sonra ölkədə sülhün və sabitliyin bərpa olunması və vətəndaş qarşıdurmasına son qoyulması mütləq dərəcədə vacibdir. Azərbaycan Suriyanın ərazi bütövlüyü və suverenliyinə dəstəyini bir daha ifadə edir. Rəsmi Bakı məsələlərin Suriya xalqının iradəsinə uyğun şəkildə, habelə ölkədaxili siyasi dialoq vasitəsilə həllini tapacağına ümidvar olduğunu bildirir. Azərbaycan qardaş Türkiyə və digər həmfikir tərəfdaşlarla birlikdə Suriya xalqının üzləşdiyi humanitar problemlərin aradan qaldırılmasına də töhfə verməyə hazır olduğunu vurğulayır. Suriyada səfirliyimizin mövcud olmamasına baxmayaraq, oradakı Azərbaycan vətəndaşlarının sayının və yerinin müəyyən edilməsi istiqamətində iş aparılır. Təbii ki, Suriyada demokratik və qanuni hakimiyyət bərqərar olduqdan sonra Azərbaycan və Suriya hökumətləri arasında münasibətlər də qurulacaq. Ötən gün Prezident İlham Əliyevin Türkiyə rəhbəri Rəcəb Tayyib Ərdoğanla telefon zəngində də Suriyada Əsəd rejiminin çökməsindən sonra yaranmış vəziyyət müzakirə olunub. Söhbət zamanı dövlət başçısı İlham Əliyev bundan sonra Türkiyənin yaxın dəstəyi ilə Suriyada sabitlik dövrünün başlayacağına ümidvar olduğunu bildirərək Azərbaycanın qardaş Türkiyə ilə birlikdə Suriya xalqının üzləşdiyi humanitar problemlərin aradan qaldırılmasına dəstək verməyə hazır olduğunu qeyd edib. Dövlət başçıları bu münasibətlə Suriya xalqına təbriklərini, Suriya dövlətinin ərazi bütövlüyünə və suverenliyinə dəstəklərini ifadə ediblər. Ölkə rəhbəri İlham Əliyev bundan sonra Türkiyənin yaxın dəstəyi ilə Suriyada sabitlik dövrünün başlayacağına ümidvar olduğunu bildirərək Azərbaycanın qardaş Türkiyə ilə birlikdə Suriya xalqının üzləş-

### Tezliklə Yaxın Şərq regionunda tam yeni geosiyasi reallıqlar formalaşacaq

diyi humanitar problemlərin aradan qaldırılmasına dəstək verməyə hazır olduğunu qeyd edib. Prezident Rəcəb Tayyib Ərdoğan bütün sahələrdə olduğu kimi Suriya xalqına humanitar yardım və dəstək məsələsində də Azərbaycan və Türkiyənin birgə fəaliyyət göstərəcəyini məmnuniyyətlə qeyd edib.

**Siyasi elmlər doktoru, professor Elşad Mirbəşiroğlu "Şərq"ə açıqlamasında deyib ki, 2000-ci ildən bəri mövcud olan Bəşər Əsəd rejiminin süqut etməsi sözsüz ki, bütövlükdə Yaxın Şərq regionunda tam yeni geosiyasi reallıqlar formalaşdıracaq. Professor xatırladıb ki, 2011-ci ildən "Ərəb baharı" start götürdü və prosesi başladan dövlətlərin maraqlarının nədən ibarət olması bəlli idi:** "Əsas hədəflərdən biri də mühüm geosiyasi nöqtəyə çatmaq idi. Suriyada rejim dəyişikliyi sayəsində Aralıq dənizinə maneəsiz çıxış əldə etməklə böyük coğrafiyaya nəzarəti ələ keçirmək məqsədi güdürdülər. Bu, Qərbin regionla bağlı əsas strategiyası idi. Lakin Bəşər Əsəd rejimini uzun müddət devirmək mümkün olmadı. 13 il boyunca Əsəd vətəndaş müharibəsi fonunda hakimiyyətdə qalmağı bacardı. Eyni zamanda kənar hərbi müdaxilələrin də mövcudluğu fonunda Əsəd rejimi ayaqda qala bilmişdi. Artıq Suriyada hakimiyyət dəyişikliyi prosesi getməkdədir. Reallıq odur ki, Suriyada, ümumiyyətlə, Yaxın Şərq regionunda maraqları olan tərəflər yeni formalaşacaq hakimiyyətlə əməkdaşlıq etməyə hazırdırlar. Əgər regionda yeni geosiyasi reallıqlardan söhbət gedirsə, bu, Cənubi Qafqaz bölgəsinə də təsir göstərəcək. Çünki həmin proseslərdə birbaşa iştirakçı ölkələrlə Azərbaycanın sıx əlaqələri var. Bu mənada qardaş Türkiyəni xüsusi qeyd etmək lazımdır. İran da proseslərin içərisində idi. Bildiyimiz kimi, Suriyanın şimal torpaqlarında müvafiq olaraq Türkiyənin cənub əraziləri boyunca kürd terrorçu qruplaşmaları Türkiyənin təhlükəsizliyinə ciddi təhdidlər yaradırdılar. Xüsusən də ABŞ Türkiyənin təhlükəsizliyinə mövcud təhlükələrin aradan qaldırılması ilə bağlı müəyyən vədlər versə də, onu yerinə yetirməmişdi".

**E.Mirbəşiroğlu bəyan edib ki, Türkiyə-Rusiya-İran üçlü formatında Astana prosesi də başladılmışdı. Astana formatı çərçivəsində müəyyən razılaşmalar əldə edilsə də, bütövlükdə proseslərə ciddi təsir göstərəcək addımlar atılmamışdı:** "İndi vəziyyət tamam dəyişmiş durumdadır. Əsəd rejiminin devrilməsi regionda münaqişə potensialını nəzərə çarpacaq dərəcədə azalda biləcək. Nəticədə bölgədə yeni geosiyasi münasibətlər sistemi qurulacaq. Azərbaycan Prezidentinin Türkiyə dövlət başçısına telefon zəngi, həm regiondakı vəziyyəti, həm də Suriyada baş verənləri müzakirə etməsi də buna dəlalət edir. Hesab edirəm ki, sonrakı mərhələdə Türkiyənin sərhədləri boyunca təhlükəsizlik tədbirlərini görməsi üçün yeni imkanlar yaranacaq. Bu da çox vacib məqamdır. Türkiyə ilə Azərbaycan arasında müttəfiqlik müqavilələri mövcuddur. Qardaş ölkənin təhlükəsizlik məsələsi bizim üçün olduqca vacibdir. Proseslərin mümkün inkişaf ssenarisinə dair liderlərin fikir mübadiləsi, mövqelərin koordinasiyalı şəkildə formalaşması çox mühümdür. Diqqətçəkən məqamlardan biri də odur ki, Suriyanın ərazi bütövlüyünə həm Türkiyə, həm də Azərbaycan prezidentləri öz dəstəklərini ifadə etmiş oldu".

**İsmayıl Qocayev**

# Əsədlə ermənilərin əlaqələri yaxşıdır

## "Asala"nın Suriyada təlim keçməsi münasibətlərdə mühüm yer tutur




**Erməni politoloqların fikirlərindən belə qənaətə gəlirik ki, Əsədin devrilməsi Ermənistan üçün baha başa gələcək. Ermənilər Türkiyənin Suriya ilə bağlı uğurlarını qəbul edə bilmir. Eyni zamanda Türkiyə və Azərbaycanın strateji əməkdaşlığı müstəvisində bunu özlərinə təhlükə sayırlar.**

Vaxtilə Paşinyanın Əsədə təbrikləri, Suriya rejiminin həmişə ermənipərəst mövqe tutması və Azərbaycana qarşı siyasətdə aktor olmasını nəzərə alsaq, Ermənistanı da "uduzanlardan" saya bilərik. Artıq iki ölkə arasındakı münasibətlərin necə davam edəcəyini Suriyadakı yeni hökumət müəyyənləşdirəcək. Digər tərəfdən, Hələbdə iştirak edən erməni hərbçilərinin və ümumiyyətlə, Suriyadakı erməni terror təşkilatlarının taleyi də maraqlıdır.

**Ankarada fəaliyyət göstərən Qafqaz Strateji Araşdırmalar Mərkəzinin (KAFKASSAM) sədri, politoloq Hasan Oktay "Şərq"ə deyib ki, İran və Rusiyanın dəstəklədiyi Əsəd rejimi gözlənildiyi kimi böyük dağıntılarla üzləşdi:** "Sovet dövlərindən Suriyanı Baas Partiyası idarə etdiyi üçün keçmiş sovet ölkələri də Əsədlə münasibətlərini həmişə isti saxlayıblar. Həmçinin Suriyada bu dövlət üçün əhəmiyyətli erməni icması var. Ona görə də Ermənistan-Suriya əlaqələri həm sovet çərçivəsində, həm də bu xüsusi vəziyyətə görə bu günə qədər çox yaxşı səviyyədə qalıb. Ermənistanın Asala terror təşkilatının Suriya və Livanda təlim keçməsi də bu münasibətlərdə çox mühüm yer tutur. Amerika və İsrailin Suriya rejiminə qarşı birgə həyata keçirdiyi HTŞ əməliyyatı nəticəsində İran və Rusiyanın dəstəklədiyi Əsəd administrasiyası dövrü bitdikdən sonra hər kəs yeni vəziyyətə uyğun mövqelər tutacaq. Ermənistanla Əsəd arasında münasibətlər yaxşı olduğundan, əlaqələrin bundan sonra necə qurulacağına baxılacaq. Ümumiyyətlə, Ermənistanın Əsədlə yaxşı münasibətlərini necə davam etdirəcəyi, həmçinin yeni administrasiya ilə münasibətlərinin necə olacağı hələlik məlum deyil. Ermənistanın Asala terror təşkilatının Suriya və Livanda təlim keçməsi münasibətlərdə çox mühüm yer tutduğunu da diqqətdən qaçırmamalıyıq".

**Aynur Babazadə**

# "Kökə və qamçı siyasəti"

## Avropa İttifaqı və Fransa Ermənistanı sülhdən yayındırır



**İrəvanda Ermənistan və Fransa arasında strateji müdafiə məsləhətləşmələrində 2025-ci il üçün müdafiə əməkdaşlığı proqramı imzalanıb.**

Məlumatı Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidməti yayıb.

Qeyd olunub ki, Ermənistan və Fransa 2025-ci il üçün müdafiə əməkdaşlığı proqramı çərçivəsində onlarla tədbiri əhatə edən sənəd imzalayıblar. İrəvanda keçirilən məsləhətləşmələrdə 2024-cü il üzrə əməkdaşlıq yekunlaşdırılıb, növbəti il üçün prioritetlər müəyyənləşdirilib.

**Siyasi şərhçi Kənan Novruzov "Şərq"ə bildirib ki, bundan əvvəl Avropa İttifaqı ilə Ermənistan arasında çoxşaxəli əməkdaşlıq proqramı ilə bağlı müzakirələr gedirdi:** "Ən çox diqqəti çəkən məqam Ermənistan və Fransa arasında strateji müdafiə məsləhətləşmələri nəticəsində 2025-ci il üçün müdafiə əməkdaşlığı proqramıdır. Çünki Fransa Avropa İttifaqının əsas üzvlərindəndir. Həm Avropa İttifaqı, həm də Fransa regionda sülhə mane olan əsas "oyunçu"lardandır. Bu baxımdan sözügedən tərəflərin Cənubi Qafqazla bağlı siyasətinin əsas istiqaməti təsir göstərə bildikləri dövlət üzərindən regiona müdaxilə etməkdir. Ermənistan üzərindən "kökə və qamçı" siyasəti yeridilir. Yəni Ermənistan əvvəlcə şirnikləndirilir, öz tərəfinə çəkilir. Daha sonra özündən asılı vəziyyətə salınır. Ən sonda isə Ermənistan Fransanın və Avropa İttifaqının Cənubi Qafqazla bağlı destruktiv xarakterli tapşırıqlarını yerinə yetirir. Müdafiə əməkdaşlıq proqramının xeyirə əlamət olduğunu düşünmürəm. Əksinə, bu proqram Ermənistanı növbəti revanş cəhdlərinə və regionda növbəti gərginliyə hazırlamağa hesablanıb. Bu dövlətin müdafiə və təhlükəsizlik imkanları artırılacaq. Nəticədə ermənilərdə müəyyən mənada 44 günlük savaş məğlubiyyətindən sonra özünəinam yaradılacaq. Ermənistan sülhdən yayındırılacaq. Əsas məqsəd də elə budur. Ermənistan böyük və güclü dövlət deyil ki, Avropa İttifaqı ilə Fransa onunla əməkdaşlıqda bu qədər maraqlı olsun".

**Aynur Babazadə**

# Əsədin devrilməsi İrəvana ağır zərbə oldu

**Bəşər Əsəd rejiminin süquta uğraması daha çox İran və Rusiyanın məğlubiyyəti kimi şərh olunur. Hadisələr göstərir ki, Ermənistan da özünü uduzanlar arasında hiss edir. Əsədin devrilməsinin Ermənistanda narahatlıqla qarşılanmasının arxasında ciddi məqamlar var. Əslində bütün zamanlarda Ermənistana dəstək verən Bəşər Əsəd daim ermənilərin hamisi kimi çıxış edib.**



### Ermənistanın müttəfiqləri və dostlarının sayı sürətlə azalır

Ermənistan mətbuatını izləyəndə onların Əsədə olan rəğbətlərini dərhal sezmək mümkündür. O baxımdan Suriyada Əsəd rejiminin gözlənilməz çöküşü Ermənistanda az qala facia kimi qarşılanıb. Ermənistandakı hökumətyönlü "Teleqram" kanalları daha çox canfəşanlıq edirlər. Ermənilər anlayırlar ki, Suriyadakı rejim dəyişikliyindən həm dövlət olaraq Ermənistan, həm də erməni icması itirib. Suriyada ənənəvi erməni partiyalarının yerli qurumları - "Daşnaksütyun" və "Hunçakyan" fəaliyyət göstərir. Bu partiyaların üzvləri dəfələrlə türk diplomatlarına qarşı terror aktları törədiblər. Terrorçular Əsədin rəhbərlik etdiyi Suriyada özlərini çox rahat hiss ediblər. Əsəd hər zaman ermənipərəst mövqe tutub və Azərbaycana qarşı çıxıb, Kəşmir məsələsində Pakistanı deyil, Hindistanı dəstəkləyib. 2011-ci ildə Suriyada müharibə başlayanda, bu ölkədə 100 minə yaxın erməni yaşayırdı. Onların 60 minə yaxını Hələbdə, 10 minə yaxını Dəməşqdə, 6-7 min nəfəri Latakiyada və digər ərazilərdə məskunlaşmışdılar. Son məlumatlara görə, hazırda Suriyada 30 minə yaxın erməni yaşayır. Bunların da əksəriyyəti Hələb sakinləridir.

**Siyasi şərhçi Əlisahib Hüseynov "Şərq"ə deyib ki, Əsəd rejimi Azərbaycana qarşı təcavüzkar, terrorçu və soyqırımçı mövqedən çıxış edən Ermənistanı yaxından dəstəkləyirdi. Ekspert Ermənistanın "demokrat" baş naziri Nikol Paşinyanın öz xalqının qanını tökən Bəşər Əsədi 2021-ci il prezident seçkilərində "qələbə" münasibətilə təbrik etməsini xatırladıb:** "Biz Əsədin vətəndaş müharibəsinin davam etdiyi Suriyada sülhün bərqərar edilməsinə, dialoqun başlanmasına yönəlmiş "səylər"ini unutmamışıq. Paşinyanın "odlu-alovlu" təbriki Əsəd rejiminin Ermənistanla olan dərin əlaqələrindən irəli gəlirdi. Ona görə də İran, Suriya, Livan və s. kimi terroru dəstəkləyən ölkələrlə əməkdaşlıq etməkdən çəkinməyən "qərbpərəst" Ermənistan hakimiyyətinin bu gün Əsəd rejiminin çökməsindən məyus olması anlaşılandır. Bəşər Əsədin Dəməşqdən qaçıb Rusiyaya sığınması Ermənistan üçün həqiqətən də ağır zərbə oldu. Ermənistanın müttəfiqləri və dostlarının sayı sürətlə azalır. Ermənistanın ənənəvi müttəfiqləri olmuş Rusiya və İranın Suriyadakı proseslərdə zəiflik göstərməsi bir çox ermənilərdə belə bir təəssürat formalaşdırıb ki, Ermənistanın daimi etibarlı və güclü müttəfiqi yoxdur. Onlar düşünürlər ki, nə vaxtsa Ermənistan da Suriyanın aqibətini yaşaya bilər. Erməni ekspertlər Suriyadakı hadisələr fonunda təşvişə düşərək, Ermənistanın Suriyaya çevriləcəyi ilə bağlı müxtəlif proqnozlar verirlər. Ermənistanın Suriyanın taleyini yaşayacağına dair proqnozları indi əksər erməni analitiklərinin şərhlərindən də görmək mümkündür. Suriya ilə Ermənistan arasında həqiqətən də bir bənzərliyin olduğunu deyən və İrəvanın Dəməşqin taleyini yaşayacağı ilə bağlı proqnozlar verən sözügedən ekspertlər, əslində, dolayısı yolla etiraf edirlər ki, Ermənistan yanlış siyasət yürüdür. Ancaq Ermənistanın Suriyanın aqibətini yaşamaq ehtimalı daxili amillərdən yox, bu ölkənin öz qonşularına qarşı ərazi iddialarından hələ də əl çəkməməsindən qaynaqlana bilər. Ermənistan konstitusiyasının istinad etdiyi Müstəqillik Bəyannaməsində Azərbaycan və Türkiyəyə qarşı ərazi iddialarının yer alması son nəticədə Ermənistan dövlətinin özünün varlığını təhlükə altında qoyur. İrqçiliyin və ultramillətçiliyin təbliğat yuvasına çevrilmiş erməni kilsəsinin ortaya atdığı "miatsum", "böyük ermənistan" kimi təcavüzkar, ekspansionist ideyalar Ermənistanın özü üçün ekzistensial təhlükələr yaradır".

**Analitikə görə, İrəvanın Zəngəzur dəhlizinin açılmasını İranın, Fransanın təhriki ilə əngəlləməsi və silahlanma bu ölkənin "ikinci Suriya"ya çevrilməsi ehtimalını artırır:** "Ermənistanı silahlandıranlar onun "ikinci Suriya"ya çevrilməsinə şərait yaradırlar. Onlar Ermənistanı öz geosiyasi maraqları üçün silahlandırırlar. Lakin bu silahların bir qismi günün birində Ermənistan müxalifətinin də əlinə keçə bilər. Suriyada olduğu kimi Ermənistanda da hakimiyyəti silahlı müqavimət yoluyla dəyişmək istəyən revanşist qüvvələr çoxdur. Onların məqsədi Ermənistan-Azərbaycan normallaşma prosesini dayandırmaq və Ermənistanı yenidən işğalçı ölkə xəttinə qaytarmaqdır. Bütün bunlar heç şübhəsiz ki, Ermənistanın "ikinci Suriya"ya çevrilməsi üçün potensial zəmin yaradır. Ona görə də, erməni təhlilçilər Suriyada Əsəd rejiminin devrilməsinə görə isterikaya düşüb, Türkiyə və Azərbaycanın əleyhinə sərsəm fikirlər səsləndirməkdənsə, sülh prosesinin sürətlənməsinə dəstək verməlidirlər. Ermənistanı Suriyanın durumuna düşməkdən yalnız real sülh prosesi xilas edə bilər".

**İsmayıl**

# İran Türkiyəyə çox böyük ehtiyac duyacaq

## Xameneinin açıqlaması Tehranın güzəşt hazırlıqlarının əlaməti kimi görünür



**Seyid Əli Xamenei ABŞ və İsraili birbaşa, Türkiyəni isə sətiraltı eyhamlarla ittiham etsə də, Tehran üzləşdiyi riskləri Ankara olmadan yoluna qoya bilmədiyini başa düşür. Çünki İran növbəti etapda geosiyasi tarazlığının pozulması fonunda daha heyrətamiz hadisələrlə qarşılaşa bilər.**

Tehran indi Türkiyəyə İranın itkilərini kompensasiya edəcək kənar faktor kimi baxmağa məhkumdur. Xameneinin Ankaranı birbaşa ittiham etməkdən çəkinməsi də İranın Türkiyəyə sabit və müsbət keçidi təmin edən amil kimi baxması ilə əlaqəlidir. Çünki İran nəinki potensial olaraq Suriyadakı strateji mövcudluğunu itirir, həm də qonşu Livanda ağır silahlı bir proksi saxlamaq qabiliyyətindən məhrum olur.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə bildirib ki, İran düşə biləcəyi növbəti xaos dalğasından qaçmaq üçün Türkiyə ilə Suriya ilə yanaşı, İraqda da dil tapa bilmək variantlarını axtarır. Ekspertin sözlərinə görə, İran növbəti zərbəni İraqda gözləyir. Digər tərəfdən, Tehran İraq və Yəməndə milisləri dəstəkləmək kimi uğursuz strategiyasını ən azından ikiqat azaltmağı hədəfləyə bilər ki, gələcək təhlükələrdən sığortalansın:** "İran bu baxımdan regional güc kimi Türkiyə ilə, qlobal aktor olan ABŞ-nin yeni Prezidenti Donald Trampın administrasiyası ilə danışıqlar əsnasında, yeni yanaşmaya açıq olduğuna işarə edir. Xameneinin Bəşər Əsədin süqutunu Suriyanın devrilmiş hökumət güclərinin üzərinə atması da Tehranın gələcək regional yanaşmalarda güzəştə hazırlıqlarının əlaməti kimi şərh oluna bilər. Bundan başqa, görünür ki, Xamenei Türkiyə vasitəsilə ABŞ-nin maraqlarının nəzərə alınması istiqamətinə də həvəslənir və Ankaraya İraqda yarana biləcək təhlükələrə qarşı əməkdaşlıq təklif edir. Ehtimal ki, İraqda İran proksi qüvvələrlə dar miqyaslı hücum kampaniyalarına dəstək üçün Türkiyənin də mövqeyini öyrənir".

**Analitik hesab edir ki, bununla belə İranın nüvə silahı əldə etmək potensialı regionda əks-səda verəcək növbəti həyəcan siqnalı yarada bilər:** "Çünki müqavimət oxu qırılan İranın danışıqlar nəticə verməsə, nüvə silahı əldə etməsinə dair müxtəlif informasiya əməliyyatlarına başlayacağı ehtimalı yüksəkdir. Bu, İranın xarici strategiyası ilə paralel daxili siyasət arenasındakı uğursuzluq hekayələrini ört-basdır etmək vasitəsinin bir hissəsi ola bilər".

**İsmayıl**





# İlk məktəb həkimi, cümhuriyyət qurucusu...

## Bəhram bəy Axundovun həyatının bəzi qaranlıq səhifələri araşdırmalardan kənar qalıb

**Bu günədək şəxsiyyəti və fəaliyyəti haqqında cəmiyyətimizdə kifayət qədər məlumatlar olmayan, öz dövrünün ictimai-siyasi xadimi və tanınmış məktəb həkimi Bəhram bəy Mirzə Cəfər bəy oğlu Axundov barəsində arxivlərdə kifayət qədər məlumatlar var. Təəssüf ki, bu məlumatlar sistemləşdirilməyib və tədqiqatdan kənarda qalıb.**

Dövlət Tarix Arxivinin "Bakı 2-ci kişi gimnaziyası" adlı fondunda Bəhram bəy Mirzə Cəfər bəy oğlu Axundovun şəxsi işi qayğı ilə qorunub saxlanılır.

ADTA-nın "Bakı 2-ci kişi gimnaziyası" adlı fondunda saxlanılan sənədlərə əsaslanaraq qeyd etmək olar ki, Bəhram bəy Mirzə Cəfər bəy oğlu Axundov 1872-ci il fevralın 6-da Şuşada dünyaya göz açıb. Dini məzhəbinə görə müsəlman olan B.Axundov 4-cü dərəcəli Şir və Günəş Fars ordeni alan azərbaycanlı aydındır. O, ildə 600 rubl vəsait alıb.

B.Axundov 15 iyun 1892-ci il tarixdə Şuşa real məktəbində imtahanları müvəffəqiyyətlə verərək şəhadətnamə alıb. Daha sonra o, Parisə yollanıb, orada Sorbon Universitetində kurs keçərək 31 iyul 1894-cü il tarixdə müvafiq şəhadətnaməyə layiq görülüb.

B.Axundov həmçinin Fransanın Lill universitetində təbiyyat fakültəsi üzrə kursda mühazirələr dinləyib, sonra imtahanlardan müvəffəqiyyətlə keçərək 1896-cı il noyabrın 13-də təbiyyat elmləri üzrə şəhadətnamə alıb. O, daha sonra Fransada Lill universitetinin tibb fakültəsində təlim və tədrik keçərək həmin kursu tibb doktoru rütbəsində başa vurub, 1901-ci il oktyabrın 2-də müvafiq olaraq diploma layiq görülüb. B.Axundov 26 iyul 1903-cü il tarixli fərmana uyğun olaraq Təbrizdə 1902-1903-cü illərdə Şah həzrətlərinin sarayının həkimi vəzifəsində çalışıb.

Xeyli müddət keçdikdən sonra isə B.Axundov 1904-cü ildə İmperator Xarkov Universiteti nəzdindəki Tibbi İmtahan Komissiyasının sınağından müvəffəqiyyətlə keçərək həkim (lekar) statusunu qazanıb və 22 iyun 1904-cü il tarixində diplom ala bilib.

B.Axundov həyatının sonrakı illərində Bakı şəhərində yerləşən "Bakı ikinci kişi gimnaziyası" adlı məktəbdə həkim vəzifəsində çalışıb. B.Axundov Mariya Selestina Emilyevna ilə ailə həyatı qurub və onun bu evlilikdən iki övladı dünyaya gəlib.

Onun ilk övladı Əli bəy 12 oktyabr 1908-ci ildə, qızı Tura xanım isə 25 dekabr 1909-cu ildə doğulub. Arxiv sənədində Bəhram bəy Axundovun övladlarının müsəlman dininə mənsub olduğu qeyd edilir.

Arxivin "Bakı üçüncü qadın gimnaziyası" adlı fondunda B.Axundovun M.L. Poqrebnoyun direktor olduğu Bakı üçüncü qadın gimnaziyasının Pedaqoji Şurasının sədrinə ünvanladığı 8 iyul 1913-cü il tarixli ərizəsi qayğı ilə qorunub saxlanılır.

Gimnaziyanın Pedaqoji Şurasının sədrinə ünvanladığı həmin ərizədə B.Axundov qeyd edirdi: "Sizə həvalə edilmiş gimnaziyada mənə məktəb həkimi vəzifəsinin verilməsini siz cənablardan xahiş edirəm. Bununla yanaşı əlavə edirəm ki, mən 1910-cu ildən etibarən "Bakı ikinci kişi gimnaziyası"nın həkimi vəzifəsində işləyirəm və hazırda mənim sənədlərim oradadır. İxtisasım - daxili, uşaq və əsəb xəstəlikləridir. Xahiş edirəm mənim təcrübəm haqqında Bakı Şəhər İdarəsinin həkimi V.D.Jitkovdan, şəxsiyyətim haqqında məni yaxşı tanıyan cənab İritskidən, həmçinin mənim üzvü və xəzinədarı olduğum vərəmlə mübarizə üzrə Qafqaz Cəmiyyətinin Bakı şöbəsinin sədri, Bakı Şəhər İdarəsi rəisinin həyat yoldaşı Y.Q.Martınovadan soruşun". B.Axundovun Bakı üçüncü qadın gimnaziyasına həkim vəzifəsinə qəbul edilib-edilmədiyi barədə məlumat aşkar etmək mümkün olmayıb. Çox güman ki, həmin vaxtları o hələ kişi gimnaziyasında həkim vəzifəsində fəaliyyətini davam etdirib.

B.Axundov 20 əsrin əvvəllərində Bakının ictimai həyatında fəal iştirak edib, "Nicat" və "Səfa" xeyriyyə cəmiyyətlərinin üzvü olub. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Parlamentə seçilib, bitərəflər fraksiyasını təmsil edib. 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən B.Axundova xaricə təhsil almağa gedən tələbələrin sağlamlığına nəzarət etmək tapşırığı verilib. O, bu vəzifənin öhdəsindən layiqincə gəlib və seçilmiş gənclərin təhsil almaq üçün müvəffəqiyyətlə xarici ölkələrə yola salıb.

1920-ci ilin aprelində Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğalından sonra B.Axundov müxtəlif səhiyyə müəssisələrində həkim işləyib, "Əmək qəhrəmanı" adına layiq görülüb. Bəhram bəy Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Xalq Komissarları Şurasının, 1920-1925-ci illərdə isə Dövlət Sığorta İdarəsinin savadlı, tanınmış həkimi olub. Bəhram bəy Axundov 1932-ci ildə Bakıda vəfat edib.

XX əsrin I yarısında sağlam və savadlı azərbaycanlı gənclərin yetişdirilməsində görkəmli ictimai-siyasi xadimlərimizlə yanaşı, B.Axundovun da xidmətləri xalqımız tərəfindən unudulmur, böyük hörmət və ehtiramla yad edilir.

**Rafiq Səfərov,**
**Azərbaycan Milli Arxiv İdarəsinin baş məsləhətçisi**

# Aranın sakitləşməyini gözləyirlər

## Qərb daha yumşaq yolu tutmaq zorundadır

**Tbilisidə yenidən hökumət əleyhinə aksiya başlayıb. Parlament binası qarşısına yüzlərlə etirazçı toplaşıb, Rustaveli prospekti bağlanıb.**

**Ərazidə polis qüvvələri asayişi qoruyur. Hər hansı insident qeydə alınmayıb.**

Qeyd edək ki, 28 noyabrda Gürcüstan Baş naziri İrakli Kobaxidze ölkəsinin AB-yə üzvlük danışıqlarını 2028-ci ilə qədər dayandırdığını elan etdikdən sonra Tbilisidə aksiyalar sistemli olaraq keçirilir.



Avropa İttifaqı Gürcüstanın yeni hökuməti ilə dil tapmaq üçün müəyyən qərarlar qəbul etməli olacaq

**Orta Doğu Araşdırmalar Mərkəzinin sədri, politoloq Sədrəddin Soltan "Şərq"ə söyləyib ki, Gürcüstandakı hadisələr Qərb blokunu, xüsusilə Amerika Birləşmiş Ştatları və Avropa İttifaqını narahat edir:** "Çünki Gürcüstan həmin blokun Cənubi Qafqazda ən etibarlı tərəfdaşı sayılırdı. Hətta iddialar var idi ki, Gürcüstan indiki əraziləri ilə NATO və Avropa İttifaqına üzvlüyə çox yaxındır. Amma baş verən son hadisələr ABŞ, Avropa İttifaqı və NATO-nun Gürcüstana münasibətində müəyyən dəyişiklik etməsinə səbəb oldu. ABŞ və Böyük Britaniya Gürcüstanla bir sıra istiqamətlərdə əməkdaşlığı dayandırıb. Avropa İttifaqı isə Gürcüstanla əlaqələrinə yenidən baxacağı formasında açıqlamalar verib. Bəzi məlumatlara görə, Gürcüstan 2028-ci ilə qədər Aİ ilə əməkdaşlığı dayandıracaq. Ölkədə baş verən müxalifətin etiraz aksiyası da hökumətin tutacağı sözügedən addıma qarşıdır. Bir müddət öncə Gürcüstanın Baş naziri İrakli Kobaxidze açıqlama verdi ki, Gürcüstan hökumətinin Avropa İttifaqıyla əməkdaşlığı dayandırmaq fikri və niyyəti yoxdur və yayılan məlumatları dezinformasiya adlandırdı".

**Ekspert qeyd edib ki, Avropa İttifaqına üzv ölkələrin xarici işlər nazirləri ABŞ, Böyük Britaniya və NATO-nun Gürcüstana münasibətindən daha yumşaq yol almaqla bağlı qərar qəbul edəcəklər:** "Onlar daha çox vəziyyətin sakitləşməsini gözləməklə bağlı qərar qəbul edə bilərlər. Çünki Avropa İttifaqında olan bəzi rəsmilər ABŞ-nin Gürcüstana qarşı radikal münasibətini tənqid etmişdi. Ona görə də Avropa İttifaqı Gürcüstanın yeni hökuməti ilə dil tapmaq üçün müəyyən qərarlar qəbul etməli olacaq. Bu, Gürcüstan hökuməti və Avropa üçün regional marağının təmin olunmasına müəyyən üstünlük verə bilər. Çünki Gürcüstanla münasibətləri tamamilə kəsmək rəsmi Tbilisinin yönünü dəyişmək olar".

**Şahanə Ziyad**

# Suriyanın müvəqqəti baş naziri qaçqınları vətənə qayıtmağa çağırdı

**Suriya müvəqqəti hökumətinin baş naziri Məhəmməd əl-Bəşir milyonlarla suriyalı qaçqınların vətənə qayıtmasını təmin etməyi və vətəndaşların təhlükəsizliyini qorumağı planlaşdırır.**



Trend bu barədə xarici KİV-ə istinadən xəbər veir.

"İndi Suriya azad ölkədir, öz qürurunu və özünə hörmətini bərpa edib. Geri qayıdın", - deyə o, xaricdə yaşayan bütün suriyalılara müraciət edib.

O, hökumətin bütün insanların və məzhəblərin hüquqlarına riayət olunmasını təmin edəcəyinə söz verib.

Eyni zamanda baş nazir Suriyadakı ağır maliyyə vəziyyətinə görə vətəndaşlara əsas xidmətlərin göstərilməsinin çətin olacağı barədə xəbərdarlıq edib.

"Xəzinədə yalnız Suriya valyutası var və o, demək olar ki, heç bir dəyər daşımır. Bir ABŞ dolları 35 min Suriya funtuna bərabərdir", - M. əl-Bəşir bildirib.

*Qeyd edək ki, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının məlumatına görə, 2023-cü ildə Suriyadan 5 milyondan çox insan qaçqın düşüb.*



# Tərəflər artıq savaşdan yorulub

## Rusiya və Ukrayna Trampın masası arxasına oturaraq razılığa gələ bilərlər

**Rusiya Trampın Ukrayna ilə bağlı təkliflərini öyrənməyə hazırdır, lakin öyrənmək razılaşmaq demək deyil.**

Bunu Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkov bildirib. Rusiya XİN rəsmi nümayəndəsi Mariya Zaxarova isə Moskvanın hələ Trampdan Ukrayna böhranının həlli ilə bağlı Rusiyanın narahatlığını nəzərə alacaq təkliflər almadığını söyləyib. Zaxarova vurğulayıb ki, Putinin təkliflərinin yerdəki reallıqları nəzərə alaraq həyata keçirilməsi münaqişəyə son qoya bilər.

**AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli "Şərq"ə söyləyib ki, Donald Tramp prezidentliyə namizədliyi dövründə sözügedən məsələni hakimiyyətə gəldikdən sonra bir günə həll edəcəyini söyləmişdi:** "Əlbəttə, məsələləri bir günə həll etmək Donald Trampın səlahiyyətində deyil. Amma müəyyən təkliflər var. Lakin həmin təkliflər müqayisədə Ukraynadan daha çox Rusiyanın xeyrinədir. Rusiya savaşda üstün olan tərəfdir. Burada Ukraynanın məsələni qəbul etməsi çətin olacaq. Birinci növbədə təklif prosesi qəbul olunur və daha sonra danışıqlar başlayır. Təkliflər üzərində danışıqların başlaması Donald Trampın uğuru sayılacaq və Rusiyanın danışıqlara getməsi olacaq. Ukraynanı da danışıqlara məcbur etsələr, korrektələr ilə Donald Trampın bu təklifi qəbul oluna bilər. Artıq Rusiya və Ukrayna müharibədən yorulub, hər iki ölkə çətin durumdadır. Amerika da, Donald Tramp da Ukrayna savaşına pul xərcləmək istəmir. Bütün reallıq fonunda Rusiya və Ukrayna Trampın masası arxasına oturaraq razılığa gələ bilərlər".

**Şahanə Ziyad**

# Ən çox qazanan dövlət İsraildir

## Türkiyənin Suriyadakı rejim dəyişikliyindən qazanclı çıxıb-çıxmayacağını isə zaman göstərəcək

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Bəşər Əsəd rejiminin devrilməsi fonunda Suriyanın təkrar bölünməsinin yolverilməz olduğunu bildirib. Suriyada baş verənləri şərh edən Türkiyə lideri deyib ki, Suriyanın təkrar bölünməsinə və Suriyanın qarşıdurma bölgəsinə çevrilməsinə yol vermək olmaz. Ərdoğan qeyd edib ki, Türkiyə illərdir suriyalılara sığınacaq verib və bu, qardaşlıq sınağından uğurla keçib. Dövlət başçısı Suriyada son həftələr baş verən hadisələri "bütün region üçün tarixi dövr" adlandırıb:**

"Son 13 ildə Suriya öz tarixində "qara zolaq"la üzləşib, bu, 61 il hakimiyyətdə olan "Baas" diktaturasının devrilməsi ilə başa çatdı. Suriya xalqının önündə "işıqlı bir fürsət pəncərəsi" açılıb". Ərdoğan ümid etdiyini bildirib ki, çox yaxın gələcəkdə İŞİD və PKK terrorçularının fəaliyyət göstərdiyi Suriya əraziləri azad ediləcək. Türkiyə rəhbəri Suriya ərazilərinə nəzarət etmək istəyən qüvvələrə də xəbərdarlıq edib: "Türkiyə Suriyada bugünkü nailiyyətləri əldə etmək üçün həddən artıq səy göstərib. Başqalarının Suriya xalqından üz döndərdiyi bir vaxtda biz qapılarımızı qonşu ölkədən milyonlarla insanın üzünə açdıq. Ankara yeni gərginlik dövrələrinə və Suriyanın təkrar qarşıdurma zonasına çevrilməsinə yol verməyəcək". Qeyd edək ki, Türkiyənin Milli İstihbarat Təşkilatı Suriyada PKK/YPG terror təşkilatının Əsəd rejimindən ələ keçirdiyi silah və sursatları daşıyan konvoyuna qarşı uğurlu əməliyyat həyata keçirib. Əməliyyat nəticəsində 12 yük maşını, 2 tank və 2 sursat anbarı məhv edilib. Məlumata görə, terror təşkilatı ələ keçirdiyi hərbi avadanlıqları Türkiyəyə qarşı istifadə etməyi planlaşdırırmış. MİT-dən bildirilib ki, Suriyada yaranmış mövcud şəraitdə terror təşkilatının sərhəd bölgələrində möhkəmlənərək Türkiyəyə qarşı fəaliyyət göstərməsinə icazə verilməyəcək və bu cür əməliyyatlar davam etdiriləcək.

**Fatih Sultan Mehmet Universitetinin professoru, tarixçi-alim Hasip Sayğılı "Şərq"ə açıqlamasında vurğulayıb ki, Suriyada Əsəd rejimi gözlənilməz sürətlə süqut etdi. Professorun sözlərinə görə, zülm və təzyiqlərə əsaslanan məzhəbçi diktatura rejiminin devrilməsi, şübhəsiz ki, bir çox insana sevinc bəxş etdi:** "Rejimin süqutu Əsəd zülmündən əziyyət çəkən kütlələr arasında gözlənilməz həyəcana səbəb oldu. Ancaq bu məsələdə itirən və qazanan tərəflər var. Rejimin dağılması ilə Rusiya və İranı itirən tərəflər arasında görmək lazımdır. Rusiya Ukrayna ilə müharibə vəziyyətində olması səbəbi ilə 2016-cı ildəki BAAS rejimi üçün etdiklərini təkrarlaya bilmədi. Hələlik Moskvanın bu yanaşmasının Qərblə razılaşmalı şəkildə güzəştə gedib-getmədiyini söyləyə bilmirik. Suriyadakı yeni hökumət rəsmilərinin Rusiyanın oradakı hərbi bazalarına etiraz etməyəcəklərini açıqlaması maraqlı məqamdır. Hərbi bazaları qalsa belə, Rusiyanın Suriyadakı təsirinin sona çatması qaçılmazdır. Bu, yüzillərdir şimaldan Rusiya təhlükəsi ilə üzləşən Türkiyənin cənubdan da mühasirəyə alınması ehtimalını aradan qaldırmasa da, xeyli zəiflədib. Suriyada çökmüş rejimin ikinci itirəni İrandır. Livanda Hizbullah İranın forpostu kimi kritik dövrlərdə BAAS rejimini bütün gücü ilə dəstəkləyirdi. Lakin son dövrlərdə İsrailə qarşı mübarizə nəticəsində gücünü xeyli itirmiş Hizbullah HTŞ-nin Əsəd rejimini devirdiyi müddətdə öz müttəfiqinin yanında dayana bilmədi. Rejimin süqutu İranın Suriyadakı təsirinə son qoydu. Demək olar ki, İran Suriyada ən bariz şəkildə uduzan tərəfdir".




**Alim vurğulayıb ki, prosesə başqa prizmadan baxdıqda fərqli qiymətləndirmələr də ortaya çıxır:** "Başqa dövlətlər tərəfindən Yaxın Şərqin problemi kimi görülən və Türkiyəyə hücum ehtimalı da zaman-zaman dilə gətirilən İsrail Suriyadakı rejimin çökməsindən ən çox qazanan dövlətdir. İsrail işğal etdiyi Colan təpələrinin qarşısındakı bufer zonadan əlavə Suriya ərazisinin əhəmiyyətli hissəsini də işğal etməkdədir. Suriyanın hərbi potensialı və infrastrukturu geniş şəkildə məhv edilib. İsrail Hərbi Hava Qüvvələrinin Suriyanın ən şimal bölgəsində, Türkiyə sərhədində yerləşən Qamışlıya zərbələr endirməsi də diqqət çəkir. Daha önəmlisi odur ki, İsrail rəsmiləri az qala hər gün onların dəstəyi ilə Suriya coğrafiyasında "Kürdüstan dövləti"nin qurulacağını bəyan edərək, yeni vəziyyətin Türkiyə və digər region ölkələri üçün ciddi risk və təhlükə yaratdığını göstərirlər".

**Professorun fikrincə, Əsəd rejiminin devrilməsindən qazanan qruplardan biri də İŞİD-ə qarşı mübarizə apardığı səbəbilə ABŞ-nin himayəsində olan və bölgədə dəstəklənən separatçı terrorçu təşkilat - PYD-dir:** "Fəratın qərbində Tel-Rıfat və Menbiçdən münaqişəsiz geri çəkilən təşkilat hakimiyyət boşluğundan istifadə edərək, neft və qaz ehtiyatları da daxil olmaqla ölkənin üçdə birinə nəzarəti ələ keçirir. Suriyada yeni qurulan HTŞ hökuməti PYD-nin dominantlıq zonası haqqında dəqiq fikir bildirmir. Lakin belə təəssürat yaranır ki, o, mövcud vəziyyətə çox da etiraz etməyəcək. Digər məqam odur ki, ABŞ administrasiyası separatçı terror təşkilatını özünün tərəfdaşı kimi gördüyünü hər fürsətdə bəyan edir".

**H.Sayğılı əlavə edib ki, Türkiyə üçün Suriyada diktatura rejiminin süqutu hələlik konkret müsbət nəticə verməyib:** "Türkiyədə əhali balansını pozan milyonlarla suriyalı qaçqının öz ölkələrinə qayıdıb-qayıtmayacağı hələlik bəlli deyil. Əgər gündə cəmi 200-300 suriyalının sərhəd qapılarından qayıtdığı xəbəri doğrudursa, bu tendensiyada kəskin artım müşahidə olunmursa, qeydiyyatdan keçməyən Suriya əhalisinin qalmağa davam edəcəyini proqnozlaşdırmaq mümkündür. Suriya əhalisinin Türkiyə vətəndaşlarının sayından çox olduğu deyilən Kilis və Hatay kimi sərhəd vilayətlərimizdə mövcud ağrılı vəziyyətin həllinin yubanacağı da ehtimallar arasındadır. Narahatlıq doğuran digər məsələ separatçı terror təşkilatının devrilmiş rejim dövründəkindən daha çox nüfuz qazanma ehtimalıdır. Əgər Suriyada demokratik, dini-irqi ayrıseçkilik etmədən vətəndaşların hüquqlarının bərpa edildiyi bir hökumət qurularsa, Türkiyənin və region ölkələrinin xeyrinə olacaq. Bu kontekstdə Ankara diplomatiyasının yeni qurulan HTŞ hökumətinə və beynəlxalq aktorlara təsir imkanları Türkiyənin Suriyadakı rejim dəyişikliyindən qazanclı çıxıb-çıxmayacağını göstərəcək. Soyuqqanlı və əsaslı diplomatiya dini-milli qəhrəmanlıq qədər həyəcan və emosiya yaratmaya bilər. Amma əsas odur ki, belə bir siyasət ölkənin real və qalıcı maraqlarına xidmət edəcək".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**



# Ermənistan hələ cəzalandırılmayıb

## Dünyadakı ikili standartlar insan haqları məsələsində də özünü göstərir

**Müasir dövrdə ən aktual və əhəmiyyətli məsələlərdən biri də insanların hüquq və azadlıqlarının etibarlı müdafiəsidir. Məlum olduğu kimi, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 10 dekabr 1948-ci ildə Ümumdünya İnsan Hüquqları Haqqında Ümumi Bəyannamə qəbul edib. O vaxtdan başlayaraq insan hüquq və azadlıqlarının müxtəlif normaları dünyanın bir çox dövlətlərinin əsas qanunlarında öz əksini tapıb.**

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra insan hüquq və azadlıqlarının qorunması sahəsində dövlətimizin ardıcıl mövqeyi bir neçə istiqamətdə aparılan işlərdə səciyyələnir. Böyük tarixi şəxsiyyət, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə 1995-ci il noyabrın 12-də qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyasında demokratik, hüquqi dövlət quruculuğu və insan haqlarının qorunması dövlətimizin ali, strateji məqsədi kimi önə çıxarıldı. Əsas qanunumuzun üçdəbir hissəsi məhz insan hüquq və azadlıqlarını özündə ehtiva edir. 10 fevral 1998-ci ildə Azərbaycanda ölüm hökmü ləğv edildi və beləliklə, Azərbaycan MDB məkanında və müsəlman Şərqində bu tarixi qərarı qəbul edən ilk dövlət oldu.

Qeyd edək ki, Bakıda Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının təşkilatçılığı və Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK) dəstəyi ilə Beynəlxalq İnsan Hüquqları Gününə həsr olunmuş tədbir təşkil edilib.

Tədbirdə çıxış edən Ombudsman Səbinə Əliyeva bu il Beynəlxalq İnsan Hüquqları Bəyannaməsinin qəbul olunmasının 76-cı ildönümünün qeyd edildiyini, bu sənədin dövlətlərin insan hüquqlarının müdafiəsi məsələsinə münasibətinin müsbət mənada dəyişməsinə səbəb olduğunu bildirib.

Müvəkkil hazırda dünya ictimaiyyətinin insan hüquqlarının kütləvi pozulması hallarına biganə qaldığını, dünyanın müxtəlif bölgələrində müstəmləkəçilik problemi ilə üzləşmiş bir sıra dövlətlərin öz azadlıqları və ədalətin bərpa olunması uğrunda mübarizə apardığını söyləyib.

Azərbaycanın da ikili standartlardan əziyyət çəkən ölkələrdən biri olduğunu qeyd edən S.Əliyeva Azərbaycan torpaqlarının 20 faizinin 30 ilə yaxın Ermənistan tərəfindən işğal altında saxlanıldığını, həmin ərazilərdə şəhər və kəndlərin, tarixi, mədəni abidələrin dağıdıldığını, bir çox flora və fauna növlərinin məhv edildiyini, torpaqlarımızın minalarla çirkləndirildiyini diqqətə çatdırıb.

Ombudsman cari ildə insan hüquqlarının, xüsusilə də sağlam ətraf mühitdə yaşamaq hüququnun müdafiəsi istiqamətində mühüm tədbirlərin həyata keçirildiyini qeyd edib. Ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etdiyini bildirən müvəkkil bu çərçivədə Ombudsman Aparatı tərəfindən Ombudsmanların Beynəlxalq Bakı Forumunun, eləcə də "İnsan hüquqlarına əsaslanan iqlim ədaləti: Milli insan hüquqları institutlarının rolu" mövzusunda interaktiv müzakirənin keçirildiyini söyləyib.

**Hüquq müdafiəçisi Əhməd Şahidov "Şərq"ə açıqlamasında deyib ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə başlamış müharibə saysız-hesabsız faciələrə, hərbi cinayətlərə, insan hüquq və azadlıqlarının kobud şəkildə pozulması hallarına səbəb olub, bölgədə humanitar fəlakət yaradıb:** "Münaqişənin bugünədək aktual olan ən ağır nəticələrindən biri isə 4000-ə yaxın azərbaycanlının hələ də itkin hesab olunmasıdır. 30 ilə yaxındır ki, Ermənistan tərəfi itkin hesab olunan həmin şəxslərin sonrakı taleyi barədə məlumat verməkdən yayınır.

Təəssüf doğuran məqamlardan biri də odur ki, Ermənistanın əsir və girovluğundan azad edilmiş şəxslərin ifadələri azərbaycanlılara qarşı müxtəlif işgəncələr verilməsi, qeyri-insani rəftar və qətlə yetirilmə hallarını təsdiq edir. Həmin şəxslər bu gün də bu travmaların izlərini daşıyırlar. Belə ki, itkin düşmüş şəxslər arasında Ermənistan silahlı qüvvələri tərəfindən işğal zamanı girov götürülmüş mülki şəxslər də var. Halbuki beynəlxalq humanitar hüququn bununla bağlı tələbləri aydındır: "Müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında" IV Cenevrə Konvensiyası və I Əlavə Protokola əsasən, mülki şəxslərin girov götürülməsi birbaşa göstərişlə qadağandır.

İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan axtarışlar zamanı çoxsaylı kütləvi məzarlıqlar aşkarlanıb ki, burada tapılan insan qalıqlarının Birinci

**Qarabağda dinc mülki əhaliyə qarşı amansız zülmlər edən cani dövlətə qarşı heç bir ölçü götürülməyib**

Qarabağ müharibəsində itkin düşmüş şəxslərə aid olması ehtimal edilir. Azərbaycanlı itkinlərin ailə üzvləri hər dəfə azad edilmiş ərazilərdə bu cür məzarlıqların tapılması xəbərindən təsəlli tapırlar, çünki hər ötən il doğmalarının sağ qayıtması daha qeyri-real göründükcə, ən azı onların əsirlikdə qalaraq işgəncələrə məruz qalmadığını bilmək və ya qalıqlarını dəfn edərək məzarlarını ziyarət edə bilmək ümidi ilə yaşayırlar. Təəssüf ki, Ermənistan tərəfi beynəlxalq hüquqi öhdəliklərinə və bununla bağlı çoxsaylı çağırışlara baxmayaraq, bu məsələdə də əməkdaşlıqdan boyun qaçırıb və dəfn yerləri ilə bağlı məlumatları təqdim etməyib. İşğal dövründə Ermənistan tərəfindən həmin ərazilərin minalanması və bugünədək dəqiq mina xəritələrinin verilməməsi də bu prosesi ləngidir. Bütün bunlar beynəlxalq hüquqa qarşı açıq hörmətsizliyin göstəricisidir. Belə ki, beynəlxalq humanitar hüquq şəraitin imkan verdiyi hallarda ölən şəxslərin ayrı-ayrı dəfn edilməsini tələb edir. Meyitlərə hörmət edilməli, onlar ləyaqətlə dəfn edilməli, dəfn yerlərinin asanlıqla tapılması və qorunması məqsədilə işarə edilməlidir. Cenevrə Konvensiyalarına I Əlavə Protokolda hərbi əməliyyatlar və ya işğal zamanı, yaxud saxlanma yerində ölən şəxslərin qalıqlarına hörmət göstərilməsi və mümkün olduğu halda onların ailələrinə qaytarılması nəzərdə tutulub".

**Hüquq müdafiəçisinin sözlərinə görə, əsir və girovluqdan azad edilmiş hərbi qulluqçuların, mülki şəxslərin, habelə hadisə şahidi olmuş digər vətəndaşların ifadələri, işğaldan azad olunmuş ərazilərimizdə aşkar olunan kütləvi məzarlıqlar, habelə müxtəlif mənbələrdən əldə olunmuş başqa məlumatlar Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş azərbaycanlıların Ermənistan tərəfindən əsir-girov götürülməsi, saxlanması və qətlə yetirilməsi faktlarını sübut edir:** "Əsir və girovluqda qaldıqları müddətdə dözülməz fiziki və mənəvi-psixoloji işgəncələrə məruz qalmış, aldığı ağır xəsarətlər nəticəsində sağlamlığını itirməsi səbəbindən ömürlük əlilliyə məhkum olunmuş yüzlərlə azərbaycanlı bu gün də fiziki və psixi sağlamlıqla bağlı problemlərdən əziyyət çəkir. Ermənistanın siyasi-hərbi rəhbərliyi yalnız Birinci Qarabağ müharibəsi dövründə deyil, tərəflər arasında ilk uzunmüddətli atəşkəs rejiminin elan olunduğu 1994-cü ildən sonrakı illərdə də qeyri-qanuni olaraq Azərbaycanın mülki şəxslərinin girov götürülərək həbs edilməsinə rəvac verib. Bu isə açıq-aşkar dinc azərbaycanlılara qarşı etnik zəmində nifrətin bariz təzahürüdür. Azərbaycan dövləti Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü nəticəsində itkin düşmüş şəxslərin və ailələrinin hüquqlarının müdafiəsini daim diqqət mərkəzində saxlayır. Əsir və girov götürülmüş, itkin düşmüş şəxslərə münasibətdə beynəlxalq humanitar hüquq qaydalarının kobud şəkildə pozulması, onların işgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzaya məruz qalmaları, habelə digər faktlarla bağlı BMT, Avropa Şurası, BQXK və digər səlahiyyətli beynəlxalq və regional təşkilatlara fərdi şəkildə müraciətlər ünvanlanıb. Lakin təəssüflər ki, dünyadakı ikili standartlar insan haqları məsələsində də özünü göstərir.

**Şeymən Bayramova**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# İrəvanın Suriya ağrıları...

## Əsədin devrilməsi ilə Ermənistan və Suriya arasındakı yüksək münasibətlər dövrü tarixə qovuşub

**Suriyada 53 illik Bəşər Əsəd rejiminin devrilməsi yalnız bu ölkənin deyil, Yaxın Şərq regionunun geosiyasi landşaftında köklü dəyişikliklər yaradıb.**

Bu səbəbdən Suriyada hakimiyyətin qəfil dəyişikliyi, Bəşər Əsədin ailəsi ilə birgə qaçışı, Suriya ordusunun sürətlə dağılması kimi mövzular dünya mediasının da diqqət mərkəzindədir. Siyasətçilər və ekspertlər baş verənlərin səbəblərinə dair müxtəlif versiyalar irəli sürür və Suriyanın gələcəyi ilə bağlı proqnozlar verirlər. Qeyd edilir ki, Əsəd rejiminin süqutundan ən çox zərər çəkən tərəflər İran və Rusiyadır. Lakin Suriyadakı avtoritar rejimin Ermənistanla illərdir qurduğu yaxın əlaqələrin və ortaq maraqların ifşa olunması da xüsusi diqqətə alınmalıdır.

Belə ki, Bəşər Əsəd rejimi tarix boyu ermənipərəst mövqeyi ilə seçilib. Rejim, Ermənistanın maraqlarını bəzən beynəlxalq müstəvidə təmsil etməklə yanaşı, Azərbaycana qarşı da qəti şəkildə çıxış etməkdən çəkinməmişdi. Məsələn, Kəşmir məsələsində Suriya rejimi Pakistanın deyil, Hindistanın maraqlarını dəstəkləmişdi.

Həmçinin 2020-ci ildəki 44 günlük Qarabağ müharibəsi zamanı Bəşər Əsəd Azərbaycanı "Suriyadan döyüşçülər gətirməkdə" ittiham etdi. Bu yalanlar az sonra faş edilsə də, Ermənistanı dəstəkləyən təbliğat kampaniyasını gücləndirməyə yönəlmişdi.

Şübhəsiz ki, Suriyada erməni hərbi kontingentinin Hələbə göndərilməsi və bu missiyanın rəsmən "minatəmizləmə əməliyyatı" kimi qələmə verilərək legitimləşdirilməsinin arxasında reallıqda Əsəd rejiminə hərbi dəstək dayanırdı. Ermənistanın Suriyada hərbi kontingenti,



Suriya ordusunun konkret fəaliyyətlərinə yardımçı olur, rejim dəstəklənməsi üçün mühüm rol oynayırdı.

**Siyasi şərhçi Azər Niftiyev "Şərq"ə açıqlamasında deyib ki, Bəşər Əsədin devrilməsi ilə Ermənistan hakimiyyəti daha bir müttəfiqini itirmiş oldu. Onun sözlərinə görə, İrəvan-Dəməşq təmasları Paşinyanın iqtidara gəlişi ilə daha da yüksəldi və strateji əməkdaşlıq səviyyəsinə çatdı:** "Baxmayaraq ki, Qərb Əsədi legitim prezident olaraq tanımırdı və ona qarşı mübarizə aparırdı, okeanın o tayından və "Qoca qitə"dən dəstək alaraq iqtidara sahiblənən Paşinyan Əsədlə münasibətləri hər zaman yüksək səviyyədə saxlayırdı. Müntəzəm olaraq suriyalı həmkarını təbrik edir, qarşılıqlı və strateji əməkdaşlığın əhəmiyyətini vurğulayır və ona xüsusi etimadını ifadə edirdi.

Müharibə cinayətkarı, Qarabağ müharibəsi zamanı çoxsaylı qətliamlar törətmiş qatı terrorçu Nubar Ozhanyanın Əsəd əleyhdarlarına qarşı döyüşməsi və Raqqa döyüşü zamanı öldürülməsi də bu xüsusda təsadüfi deyil. Terrorçu cinayətkarın adını daşıyan Nubar Ozhanyan terror qruplaşması Dəməşq və İrəvanın xüsusi xidmət orqanları ilə əməkdaşlıq edirdi".

**Ekspertin sözlərinə görə, bu əməkdaşlığın əsas məqsədi isə Ermənistanın və erməni döyüşçülərin Suriya rejiminə dəstəyini kordinasiya etmək və daha da artırmaq idi:** "Ermənistan hərbçiləri minatəmizləmə, humanitar dəstək adı altında Suriyada xidmətdədir və onlar uzun müddətdir ki, Əsəd rejiminin qorunması üçün mübarizə aparırlar. Onların Hələbdəki fəallığı xüsusi qeyd oluna bilər. Ermənistan İran vasitəsilə Suriyaya hərbi yardımlar edir və hərbi texnikalar göndərir. Əsəd rejimi İkinci Qarabağ müharibəsi zamanı Ermənistanı dəstəkləyib və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Azərbaycanın əleyhinə fəaliyyət göstərib.

Göründüyü kimi, rəsmi İrəvan daha bir strateji müttəfiqini itirib və Əsədin devrilməsi ilə Ermənistan və Suriya arasındakı yüksək münasibətlər dövrü tarixə qovuşub. Türkiyənin Suriyadakı rolu və xarabalığa çevrilmiş bu ölkənin yenidən dirçəldilməsinə verəcəyi töhfələr, Azərbaycanın da Türkiyənin yanında yer alması, bu prosesdə gözlənilən humanitar dəstəyi Paşinyan rejimi üçün öldürücü zərbədir. O səbəbdən ki, əhalisi səfil durumda yaşayan rəsmi İrəvan Suriyaya xeyli yardımlar edərək, Əsəd rejiminin qorunmasına çalışsa da, buna nail ola bilmədi. Qazananlar isə bu dəfə də düzgün geosiyasət yürüdən Azərbaycan və Türkiyə dövlətləri oldular".

Suriyadakı hadisələrə gəldikdə isə A.Niftiyev qeyd edib ki, Bəşər Əsəd ordu da daxil olmaqla daxildə bütün etimadı itirmişdi və bu şəkildə uzun müddət hakimiyyətdə qala bilməzdi.

**Şeymən Bayramova**

**Vaşinqton administrasiyası "Həyat Təhrir əş-Şam" (HTŞ) qrupuna Suriyada inklüziv hökumətin qurulmasına dəstək verməyi, ölkədə bütün hakimiyyəti öz üzərinə götürməməyi tövsiyə edib.**



# Əl-Culani Suriya hakimiyyətinin ön sırasında görünəcək

## Canları bahasına Əsəd rejimini devirən qruplaşmalar və onlara dəstək göstərənlər Amerikanın əmrləri ilə oturub-durmayacaq

Bu barədə "Reuters" agentliyinə istinadən məlumat verilir. ABŞ rəsmilərinin sözlərinə görə, Suriya Prezidenti Bəşər Əsədin devrilməsində böyük rol oynamış HTŞ avtomatik olaraq ölkə rəhbərliyini ələ almaqda deyil, əksinə, hökumətin formalaşdırılmasında və keçid hökumətinin qurulmasında iştirakda maraqlı olmalıdır. Məlumatda, həmçinin qeyd olunur ki, ABŞ administrasiyası son günlərdə Vaşinqtonun Yaxın Şərqdəki müttəfiqləri ilə koordinasiyalı şəkildə HTŞ ilə ilkin əlaqələr qurub.

**Hərbi-siyasi ekspert Həşim Səhrablı "Şərq"ə söyləyib ki, Amerika tərəfindən verilən bu açıqlama gözlənilən idi:** "Amerika Birləşmiş Ştatları çalışacaq ki, Suriyada Bəşər Əsəd rejiminin dağılmasından sonra birmənalı olaraq iqtidara ya öz adamlarını gətirsin, ya da Amerika maraqlarına uyğun iqtidar formalaşdırsın. Eyni zamanda Amerika yaxşı anlayır ki, hazırda "Həyat Təhrir əş-Şam" qruplaşması və onun lideri Əbu Məhəmməd əl-Culani Suriya xalqının iradəsini əks etdirir. Yəni o, heç bir xarici dövlətə ölkəsinin maraqlarını yedirtməyə həvəsli olmayacaq. Bu isə Amerikanın bölgədəki maraqlarına ciddi təsir göstərəcək. Ümumiyyətlə, Ağ Ev bütün regionlarda olduğu kimi Suriya və Yaxın Şərqdə də müstəqil hərəkət edən qüvvələrin olmasını istəmir. Ona görə də səy göstərir ki, Bəşər Əsədin devrilməsindən sonra Əbu Məhəmməd əl-Culanini iqtidardan uzaq tutsun".

**Ekspert qeyd edib ki, Türkiyənin HTŞ və Suriyanın Milli Ordusuna dəstəyi ilə Bəşər Əsədin devrilməsindəki həlledici rolu heç kəsə sir deyil:** "Amerika düşünə bilər ki, Suriyada Əl-Culani hökumətinin formalaşması ilə üstünlük Türkiyəyə keçə bilər. Ona görə də Əl-Culani hökumətinin formalaşmasını istəmədiyini açıq şəkildə ortaya qoyur. Hesab edirəm ki, canları bahasına Əsəd rejimini devirən qruplaşmalar və onlara dəstək göstərənlər Amerikanın əmrləri ilə oturub-durmayacaq. Hazırda Suriyada tamamilə başqa vəziyyət formalaşıb. Suriyada bundan sonra atılacaq addımlar məhz Əl-Culani və onun rəhbərlik etdiyi müxalifət düşərgəsinin öndərliyində baş verəcək. Bunun əksinə nə Türkiyə, nə Rusiya razı olar. Artıq Suriyada münaqişənin ikinci mərhələsi başlayır. İndi qruplararası qarşıdurmaya şahidlik edəcəyik. Əgər Suriya daxilində həqiqi vətənpərvər qruplaşmaların hamısı vahid ölkə maraqlarından çıxış etsə, onlar bir bayraq altına toplaşaraq xarici qüvvələrə qarşı çıxacaqlar".

**Şahanə Ziyad**



# "Bir Vətənim oldu"

## Türkiyəyə sığınan suriyalılar danışır

**Bəşər Əsəd rejiminin yıxılmasından sonra dünyanın müxtəlif yerlərində, xüsusilə Türkiyədə suriyalılar ümid dolu bayraqları qaldıraraq sevinc içində qutlamalar etdilər. Türkiyə, illərdir müharibədən qaçan milyonlarla insan üçün bir sığınacaq olmuşdu. Bu qutlamalar zamanı yaddaşıma dərin həkk olunan bir görüntü ilə qarşılaşdım. 12-13 yaşlarında bir qız, əlində yeni Suriya müxalifətinin bayrağını tutaraq kameraya baxır və deyirdi:**





"Bir Vətənim oldu ya... Bir Vətənim oldu. Əvvəllər çox üzülürdüm, hani Vətənim belə yoxdu. Mən nəydim? Mən kimdim? İndi Vətənim var ya. Həm də heç görmədiyim bir yer adına çox xoşbəxtəm". Bu sözlərdən sonra bayrağı sevinc dolu təbəssümlə yelləməyə başladı. O an sanki keçmişin ağırlığı ilə gələcəyin ümidini bir arada görürdüm. Amma bu mənzərə məni dərindən düşündürdü. Niyə bu qız Türkiyədə doğulub böyüməsinə baxmayaraq, Türkiyəni öz Vətəni kimi qəbul etmirdi? Niyə onun kimi minlərlə uşaq üçün Türkiyə sadəcə bir sığınacaq olaraq qalmış, amma həqiqi "Vətən" olmamışdı?

2016-cı ildə magistr təhsili üçün Türkiyəyə, Kayseri şəhərinə gəldiyim zaman Suriyadan gələn mühacir axınının ilk illəri idi. Kayseri suriyalıların sıx məskunlaşdığı şəhərlərdən biri olaraq diqqət çəkirdi. O dövrdə Türkiyədə cəmiyyətdə və mediada suriyalılara qarşı mərhəmət və anlayış göstərildiyini görmək olurdu. İnsanlar bu qaçqınların çəkdiyi əzablara həssas yanaşır, onları ailəvi bir qonaq kimi qəbul edirdilər. Amma illər keçdikcə bu münasibətlər dəyişdi. Mərhəmət yerini narazılığa, anlayış isə təcridə verdi. Əvvəllər isti qucaq kimi açılan qollar zamanla araya soyuq divarlar qoydu.

**Bəs bu dəyişikliyin səbəbləri nə idi?**

Öncəliklə, suriyalılar və türkiyəlilər hər nə qədər eyni dini inancları paylaşsalar da, dillər, məişət vərdişləri və sosial davranışlar baxımından dərin fərqliliklər vardı. Dillərin ayrı olması sanki iki fərqli musiqi alətinin bir ahəngdə çala bilməməsi kimi idi. Suriyalıların türk dilini öyrənməkdə çətinlik çəkməsi ünsiyyət maneələrinə, bu isə inteqrasiyanın çətinləşməsinə səbəb olurdu. Bundan əlavə, çoxuşaqlı ailə strukturları, ictimai məkanlarda fərqli davranış qaydaları bəzən türkiyəlilər üçün qəribə görünürdü. Bu mədəni fərqliliklər iki tərəf arasında sanki görünməz, amma keçilməsi çətin olan bir sərhəd yaradırdı. Eyni zamanda suriyalılar çox vaxt ucuz iş qüvvəsi kimi qəbul edilirdi. Bu isə yerli işçilərin narazılığına səbəb olurdu. Evlərin kirayələrinin artması, iş yerlərinin azalması cəmiyyətin müəyyən təbəqələrində qəzəb toxumları səpirdi. Su bir fincana sığmayanda daşdığı kimi, bu təzyiqlər də cəmiyyətdə gərginliklər yaradırdı. Ən önəmlisi də, təbii ki, media idi. Media çox vaxt suriyalıların mənfi tərəflərini işıqlandırır, onların çəkdiyi əzablara isə az yer verirdi. Bu, onların cəmiyyətdə "digər" kimi görünməsinə səbəb olurdu. Media sanki bir güzgü idi, amma bu güzgü çox vaxt suriyalıların üzünü deyil, onların cəmiyyətə gətirdiyi problemləri əks etdirirdi.

Bu dəyişiklikləri daha dərindən anlamaq üçün bir neçə dəfə suriyalıların sıx yaşadığı Kilis şəhərinə getmişdim. Bura suriyalıların sayının yerli əhalidən çox olduğu bir şəhərdir. Şəhəri gəzərkən hər dəfə yerli insanlarla söhbətlər etməyə çalışırdım. Çoxları narazılıqlarını gizlətmirdi: "Ev kiraları qalxdı, iş yerləri azaldı, şəhər dəyişdi," deyirdilər. Amma başqa hekayələr də vardı. Məsələn, ənənəvi ayaqqabı istehsalı ilə məşğul olan yaşlı bir kişi: "Bir insan insan olduqdan sonra mən niyə ona iş verməyim? Onlar da Allahın qonaqlarıdır" - deyə, cavab vermişdi bir dəfəsində. Bu cür yanaşmalar çox az rast gəlinən, amma o qədər də qiymətli idi.

Bir gün də İstanbulda Böyük Validə Xanı gəzərkən sənətkarlıqla məşğul olan orta yaşlı bir suriyalı ilə qarşılaşmışdım. Yanında balaca qızı var idi. Etirazıma baxmayaraq, mənə Hələb qəhvəsi təqdim etmiş və oturub bir az söhbətləşmişdik.

"Bizi neqativ hadisələrə görə günahlandırırlar. Amma mən qayıtmaq istəyirəm Vətənimə. Qızımı isə necə savaşın içinə aparım? Hər şey düzəlsə, mütləq qayıdacam" -demişdi, mənə. Onun gözlərində həm həsrət, həm də qorxunu görmüşdüm. O, sanki evinə dönmək istəyən, amma qapını açmağa cəsarət etməyən bir adam idi.

Mənə elə gəlir ki, heç kim xoşbəxt olduğu yerdən ayrılmaq istəməz. Suriyalılar Türkiyəyə gəldilər, çünki məcbur idilər. Amma bir yerdə yaşamaqla o yeri "vətən" kimi hiss etmək arasında böyük fərq var. "Vətən" hissi yaratmaq yalnız sığınacaq verməklə kifayətlənmir; qəbul edilmək, sevgi və anlayışla qarşılanmaq, aid olduğunu hiss etmək də lazımdır.

**O balaca qızın sevinc dolu sözlərində qeyd etdiyi kimi:**

"Bir Vətənim oldu." Onun üçün bu, Türkiyə deyil, heç görmədiyi, amma xəyalında yaşatdığı Suriyadır. Vətən, sadəcə bir coğrafi məkan deyil, aid olduğunu hiss etdiyin, sevildiyin, qəbul edildiyin bir yerdir. Türkiyə bu mənada çox şey etdi, amma aidiyyət körpüsünü tam qura bilmədi. Bu isə bizi bir daha düşünməyə vadar edir: həqiqətən aid olmağı təmin edən nədir?

**Maral Nəcəfli**



# Hər bayramqabağı qiymətlər bahalaşır

## Yeni il süfrəsinin qurulmasında istifadə olunan əsas məhsullar nədirsə, hamısında qiymət artımı müşahidə olunacaq

**Yeni ilə az qalıb. Hər kəs bayram axşamını təmtəraqlı keçirmək və süfrəsinin naz-nemətlərlə dolu olmasını istəyir. Maraqlıdır, bəs bayramqabağı qiymətlər necədir? "Baku TV"-nin əməkdaşları bunu araşdırmaq üçün paytaxtdakı bazarlardan birində olublar.**

"Fındığın qiyməti 14-15, badamın isə 17-24 manat arasında dəyişir. Kişmiş 22-24 manatadır. Şabalıdı 14-15 manata satırıq. Düyü isə 3 manat 50 qəpikdən 10 manata kimidir", - satıcılardan biri deyib.

Satıcılar deyirlər ki, bazarda alıcılıq qabiliyyəti bir qədər zəifdir. Onların sözlərinə görə, adətən bayrama bir neçə gün qalmış bazarlarda sıxlıq müşahidə olunur.

**İqtisadçı-ekspert Xalid Kərimli bildirib ki, ötən illərlə müqayisədə ərzaq məhsullarının qiymətində ciddi artım var. Oktyabr ayına olan məlumata görə, istehlak qiymətləri indeksi son 12 ayda 3,4 faiz bahalaşıb:** "Ət və ət məhsulları son 12 ayda 4,4, meyvələr isə 9 faizə qədər bahalaşıb. Kərə yağında 3 faizə qədər bahalaşma müşahidə olunur. 2022-ci ilə nisbətən 2023-cü ildə qiymət artımı daha sürətli idi. Lakin 2023-cü illə müqayisədə qeyd olunan ərzaq məhsulları üstüstə 5 faizdən çox bahalaşıb. Bu o deməkdir ki, eyni süfrəni əvvəlki ildəki kimi qurmağa çalışsanız, təqribən 100 manatlıq süfrə 105-106 manata başa gələcək".

**İqtisadçı-ekspert Fuad İbrahimli isə "Şərq"ə açıqlamasında deyib ki, bayramqabağı bu cür bahalaşmalar təkcə Azərbaycanda deyil, bütün ölkələrdə olur. Onun sözlərinə görə, istənilən bayram, tədbir, mövsüm ərəfəsi və yaxud insanların hər hansısa bir məhsula tələbatının artdığı dövrdə ticarət fəndidir:** "Azərbaycanda uzun illərdir ənənəvi olaraq Yeni il qabağı, eləcə də Novruz bayramından öncə tələbin yüksəlməsi nəticəsində ərzaq məhsullarının qiyməti artır. Gündəlik tələbat malları da daxil olmaqla, Yeni il süfrəsinin qurulmasında istifadə olunan əsas məhsullar nədirsə, hamısında qiymət artımı müşahidə olunacaq. Bu həm də mövsümlə əlaqəlidir, çünki təqribən noyabrdan sonra yerli məhsulların bazara çıxmasında müəyyən çətinliklər olur. Onların sayı, həcmi azalır. Eyni zamanda yerli istehsalımız zəifdir və buna görə xaricdən daha çox məhsullar gətirilir. Dünyada daşınma xərclərində də artımlar müşahidə olunur".

**Şəymən Bayramova**

### Elanlar

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin AzTU-nun nəzdində Bakı Texniki Kollecinin 2-ci kurs tələbəsi Nəbizadə Şahmar Tahir oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

AzTU-nun nəzdində Bakı Texniki Kollecinin 2-ci kurs tələbəsi Rüstəmli Elmar Fikrət oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# 176 radioötürücü stansiyası quraşdırılıb

## Ölkə ərazisində radio yayımının keyfiyyəti və əhatə dairəsi artıb

**Prezident İlham Əliyevin 24 iyul 2023-cü il tarixli "Azərbaycan Respublikasının ərazisində radioyayım şəbəkəsinin genişləndirilməsi üçün maliyyə vəsaitinin ayrılması haqqında" sərəncamı çərçivəsində radioyayım şəbəkəsi genişləndirilib, təkmilləşdirilib, yayım infrastrukturu isə müasirləşdirilib.**

Bu barədə Azərbaycan Respublikasında radio yayımın dünəni, bu günü və sabahı mövzusunda keçirilən seminarda məlumat verilib. Bildirilib ki, layihənin məqsədi əhalinin milli radiolara əlçatanlığının daha yüksək səviyyəyə çatdırılması, bu istiqamətdə əsasən özəl yayımçılara dövlət dəstəyinin göstərilməsi, yeni texnologiyaların tətbiqi ilə eyni radioproqramların müxtəlif ərazilərdə fasiləsiz qəbul imkanının yaradılması nəzərdə tutulub.

Görülmüş işlərə gəldikdə isə 176 ədəd FM radioyayım ötürücüsü, 60 dəst anten sistemi, 48 dəst cəmləmə qurğusu, 44 ədəd RDS qurğusu və s. quraşdırılıb.

Fasiləsiz enerji təminatı üçün zəruri infrastruktur yaradılıb. Elektrik veriliş xətləri çəkilib, transformatorlar, generatorlar, UPS və s. avadanlıqlar quraşdırılıb.

Mövcud yayım stansiyalarının maddi-texniki bazası yaxşılaşdırılıb.

Müvafiq stansiyalar təmir edilib, havalandırma və avadanlıqların məsafədən idarə edilməsi sistemləri qurulub.



**Sözügedən tədbirdə iştirak edən Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz "Şərq"ə açıqlamasında deyib ki, RİNN və Audiovizual Şuranın təşkilatçılığı ilə keçirilən tədbir daha çox ötən il Prezident sərəncamı ilə radioyayım sektorunun inkişafı üçün ayrılan 13.7 milyon manat vəsaitlə bağlı görülən işlərin Hesabatına həsr olunmuşdu:** "Nazirlik, Audiovizual Şura, Teleradio Birliyi və Dövlət Radiotezliklər İdarəsi tərəfindən təqdim olunan təqdimatlarda adıçəkilən sərəncamın icrası istiqamətində qısa zamanda xeyli işlərin görüldüyü diqqət cəlb edirdi.

Ölkə ərazisində radio yayımının keyfiyyəti və əhatə dairəsi artıb, 176 radio ötürücü stansiyası quraşdırılıb, hərəkətdə olarkən eyni radioproqramın yayım keyfiyyəti yaxşılaşdırılıb, ayrılan tezlik nominalların sayı artırılıb, radio proqramlara əlçatanlıq təmin edilib, mövcud maddi-texniki baza təkmilləşdirilib.

Ümumölkə statuslu yerüstü radio kanalların sayı 17-ə çatdırılıb. Radio yayımçılara da 3 illik texnoloji dəstək veriləcək.

Əsas müzakirə predmeti həm də rəqəmsal radioya keçid məsələsi oldu.

Teleradio Birliyi artıq bir neçə ildir ki, DAB+ texnologiya ilə rəqəmsal radionu ölkə ərazisində testdən keçirir. Rəqəmsal radioyayıma keçidlə bağlı hökumət 2024-2028-ci illəri əhatə edən tədbirlər planını təsdiq edib.

Cari ilin sonunadək Teleqüllədən aparılan DAB+ standartlı radioyayım avadanlıqlarının yeniləri ilə əvəz edilməsi və Ağsu rayonunda yerləşən "Gülüstan" radio-televiziya yayım stansiyasından DAB+ yayımın təşkili planlaşdırılıb. Bu sahədəki mövcud problemlərə diqqət yetirilib. Müzakirələrdə ölkəyə gətirilən Çin istehsallı avtomobillərin bir çoxunda rəqəmsal yayımı dəstəkləyən radionun olmadığı diqqətə çatdırılıb. Xatırladıram ki, bu texnologiya ilə təmin olunan avtomobillərdə qiymət fərqi ən azı 300-500 manat arasında dəyişir. Müzakirələrdə DAB+ texnologiyanı dəstəkləyən cihazların ölkəyə gətirilməsinin stimullaşdırılması, hökumətin bu sahəyə dəstəyinin və güzəştlərin təşkili, bu texnologiya ilə təmin edilən avtomobillərin idxalının stimullaşdırılması, maarifçilik işlərinin təşkili məsələlərinə toxunulub".

**Şəymən Bayramova**

### Elanlar

**LOT001P:** Hyundai HD-65 yük markalı, 90-RO-299 dövlət qeydiyyat nişanlı avtomobilelektron açıq hərracda satılmalıdır.İlkin hərrac 23 dekabr 2024-cü il, saat 10:39 təyin edilmişdir. Əmlakın hazırkı satış qiyməti 14.350(on dörd min üç yüz əlli ) manatməbləğində müəyyənləşdirilmişdir. Hərracda iştirak üçün 15 (on beş) manat iştirak haqqı məbləği və ilkin satış qiymətinin 10%-i, yəni 1.435 (bir min dörd yüz otuz beş) manatməbləğində beh ödənilməlidir.

**LOT 002P:** Bakı şəhəri, Xətai rayonu, A.Cəlilov küçəsi, 1217-ci məhəllə, ev 20 ünvanında yerləşən qeyri-yaşayış sahəsi elektron açıq hərracda satılmalıdır.İlkin hərrac 23 dekabr 2024-cü il, saat 10:39 təyin edilmişdir. Əmlakın hazırkı satış qiyməti 1.190.000(bir milyon yüz doxsan min ) manatməbləğində müəyyənləşdirilmişdir. Hərracda iştirak üçün15 (on beş) manat iştirak haqqı məbləği və ilkin satış qiymətinin 5%-i, yəni 59.500 (əlli doqquz min beş yüz) manat məbləğində beh ödənilməlidir.

**QEYD:**

*Hərracla tanış olmaq və iştirak etmək üçün herrac.gov.az portalına daxil olub qeydiyyatdan keçərək, beh məbləğini və iştirak haqqını ödəyərək seçdiyiniz əmlakın hərracında iştirak edə bilərsiniz. Portala daxil olarkən sizə göstərilən qeydləri nəzərdən keçirin.*

**Ətraflı məlumat almaq üçün əlaqə nömrəsi: 050-550-05-21**

# Müəllimlərə şirniyyat, şokolad hədiyyəsi

## Ekspert: "Yeni trendi normal saymıram, lakin buna da şükür"

**Son günlər istər ümumtəhsil müəssisələri, istərsə də ali təhsil məktəblərində şagird və tələbələrin sevimli müəllimlərinə şirniyyat, şokolad vermələri ilə bağlı yeni trend başladılıb. Sosial şəbəkələrdə paylaşılan müxtəlif videolara yanaşmalar da birmənalı deyil.**



Bir çoxları bu cür videoların stresli iş mühitində xoşagələn olduğunu bildirsə də, bəziləri müəllimlərinin əllərini açaraq şirniyyat almalarının peşələrinə uyğun olmadığını qeyd edir.

**Məsələyə münasibət bildirən təhsil eksperti Elşən Qafarov "Şərq"ə açıqlamasında bildirib ki, sosial şəbəkələrdə müəllimlərə şirniyyatların verilməsi və video çəkib trendə qoşulmaq cəmiyyətdə birmənalı qarşılanmır:** "Müəllimlərə qarşı olan kobud rəftarlar, dərsin pozulması ilə bağlı videolardansa, bu kimi videolar daha yaxşıdır. Ancaq 45 dəqiqə vaxt müəllimin əmək funksiyalarını yerinə yetirməsi üçün ayrılmış zamandır. Ümumtəhsil müəssisələrində 45 dəqiqənin 80 faizi tədris proqramlarının müəyyən edilməsinə, 20 faizi isə yorğunluğu aradan qaldırmaq üçün müəyyən hərəkətlərə sərf edilir. Eyni zamanda bu vaxt şagirdlərin mənəvi yetkinliyi üçün söhbətlərə ayrılmalıdır. Düşünürəm ki, müəllim müəllim olmalıdır. Yəni peşə vəzifəsini yerinə yetirərkən şəxsi həyatında bütün davranışları və tapşırıqları müəllim kimi icra etməlidir. Şəxsən bu trendi normal saymıram. Lakin bilməliyik ki, cəmiyyət sürətlə dəyişir. Ona görə də deyirəm ki, buna da şükür. Məktəblərə uyğun olmayan elə vəziyyət yaranıb ki, bu videolara baxıb yenə də şükür edirəm. Şəxsən mən müəllim olaraq bu anın videoya çəkilməsini istəməzdim. Bir sözlə, baş verənlər məni çox təəccübləndirmir".

**Fidan Həmişəyeva**

Təsisçi: "Şərq Media Qrup" MMC
Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Şəhanə Ziyad, Nəzrin Vüqarqızı

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

"Şərq Media Qrup" MMC-yə daxildir:
"Şərq" qəzeti və sherg.az saytı
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
Kapital Bank ASC Yasamal filialı
Kod: 200037
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AIIBAZ2XXXX
AZM hesab nömrəsi:
AZ74AIIB400500G9441595487103
VÖEN 1307632991

Tirajı: 1500 Sifariş: 2884



## Qadınlara ölüm hökmü!

### İranda yeni əxlaq qanunları qüvvədədir

**İranlı qadınlar ölkədə qüvvəyə minən yeni əxlaq qanunlarına qarşı çıxsalar, ölüm cəzası ilə üzləşə bilərlər. Çılpaqlığı, örtünməməyi və ya uyğun olmayan geyimi "təşviq edən"lər üçün ölüm cəzası, uzunmüddətli həbs cəzaları və böyük cərimələr qüvvəyə minir.**

Hakimiyyət tərəfindən davranışı "yer üzündə fitnə-fəsad yaymaq" kimi qiymətləndirilən şəxslər İran İslam Cinayət Məcəlləsinə əsasən ölüm cəzasına məhkum edilə bilər. Yeni qanun İran hüquq qrupları və fəallarının tənqidinə səbəb olub.

"Şərq" xəbər verir ki, İranın bu həftə qüvvəyə minməsi gözlənilən yeni məcburi əxlaq qanunlarına əməl etməyən qadınları ölüm cəzası və ya 15 ilə qədər həbs cəzası gözləyir. İnsan haqları qrupu bildirib ki, qanun həmçinin "dini vəzifələrini" yerinə yetirmək istəyən hər kəsə toxunulmazlıq təmin edir və qadınlara məcburi örtünmə tətbiq edir.

İranlı jurnalistlər, fəallar, din xadimləri və insan haqları vəkilləri bu qanunun ölkədə qadınlara qarşı artan məhdudiyyətləri qanuniləşdirəcəyini iddia edərək qəzəblərini ifadə ediblər.

**Turan**

## 2060-cı ilədək havanın temperaturu 2 dərəcə arta bilər



**Yer üzündə bölgəsəl istiləşmə həddini artıq yaxın 20 ildə görəcəyik.**

"Medicina" xəbər verir ki, Yer kürəsinin əksər quru regionları 2040-cı ilədək və ya bir qədər əvvəl 1.5 dərəcə Selsi kritik istiləşmə həddini keçəcək.

Lakin 10 iqlim modelinin təhlilinə əsasən, 34 quru region 2040-cı ilə qədər 1.6 dərəcə Selsi istiləşmə səviyyəsini keçəcək.

"Bu zaman həmin regionların 31-də hədd 2 dərəcə Selsini keçəcək. 26 regionda isə 2060-cı ilə qədər istiləşmə 3 dərəcə Selsi həddini keçəcək", - məqalədə qeyd olunur.

## 13 min kilometrlik səyahət

### Donqar balinanın rekord qıran marşrutu





**Son araşdırma, erkək donqar balinaların tipik miqrasiya məsafəsinin təxminən iki qatını qət etdiyini göstərdi.**

Donqar balina Cənubi Amerikadan Afrikaya 13 min kilometrdən çox məsafə qət edərək rekord səyahət edib. Bəs illər keçməsinə baxmayaraq, donqar balina necə aşkar edildi?

"Şərq" xəbər verir ki, "Royal Society Open Science" jurnalında dərc edilən yeni araşdırmada ilk dəfə Kolumbiya sahillərində görünən və təxminən on il sonra Afrikanın Zanzibar şəhərində qeydə alınan erkək donqar balinasının görüntüləri qeydə alınıb.

"Southern Cross" Universitetində balina bioloqu olan həmmüəllif Ted Keseman, qət edilən məsafənin qeyri-adi olduğunu, tipik miqrasiya məsafəsindən təxminən iki dəfə çox olduğunu və balinanın normal yaşayış yerindən xeyli kənarda olduğunu söyləyib.

Tədqiqatçılar balinanın necə qarşılandığından əmin deyillər. Balinanın quyruğu və ya "quyruq izi" barmaq izi qədər unikaldır. Tədqiqatçılar üz tanıma sisteminin dəyişdirilmiş formasından istifadə edərək balinanı quyruq hərəkətlərindən müəyyən edə biliblər.

Mütəxəssislər, onların hər birinin özünəməxsus fərqli naxışları, piqmentasiyası və çapıqları olduğunu söyləyərək, "Bu, onların şəxsiyyətinin beş metrlik pankartı kimidir" - deyir.

**Turan**

## "Boşanmıram, problem yoxdur"

### Məşhur müğənni ayrılıq xəbərləri ilə bağlı ilk dəfə danışıb



**Məşhur müğənni Melek Mosso və həyat yoldaşı Serkan Sağdıçın sosial şəbəkədə fotolarını silərək bir-birini izləməməsi boşanma iddialarına səbəb olub.**

"Şərq" xəbər verir ki, məşhur müğənni Mosso boşanma xəbərləri ilə bağlı ilk dəfə danışıb.

Cütlüyün boşanmağa hazırlaşdıqları iddiası uzun müddətdir medianın gündəmində müzakirə olunub.

Mosso, ayrılıq iddialarına cavab verib. "Boşanmıram, problem yoxdur. Hər evli cütlüyün yaşaya biləcəyi kiçik bir mübahisə etdik və sonra problemlərimizi həll etdik. Hər şey yaxşıdır, çox yaxşıyıq" deyərək evliliyində heç bir problem olmadığını bildirib.

**Turan**



# Tamamilə yanlış fikirdir

## Hər kəsin gün ərzində davamlı olaraq su içməsi vacib deyil

**Gündə çoxlu maye qəbul edənlər bir az üzüləcəklər, lakin Londondakı Roehampton Universitetində fiziologiya üzrə təhsil alan Lyuis Halsiyə görə, "adekvat su istehlakı ilə bağlı bəzi narahatlıqlar şişirdilib".**

"Bu bir az mürəkkəb məsələdir" deyən Halsi davam edir:

"Əlbəttə, insanlar susuz qala bilər. Bədənimizdə yüksək su dövriyyəsi var: sərin qalmaq üçün tərləyirik və buna görə də bu mayeləri dəyişdirməliyik. Ancaq ən azı qısa və ya hətta orta müddətdə çoxlu maye itirə bilərik və hələ də yaxşı ola bilərik".

"Şərq" xəbər verir ki, tərləmə və su istehlakının bədənə təsirlərini araşdıran Halsi hər kəsin ehtiyac duyduğu su miqdarının fərqli olduğunu bildirir.

Alimin verdiyi məlumata görə, iri və fiziki aktiv insanların suya daha çox ehtiyacı var. Çox arıq və ya çox əzələli olmasından asılı olmayaraq bədən yağı çox az olan insanların da suya daha çox ehtiyacı var, çünki əzələlər insan bədənində yağdan daha çox su saxlayır. Buna görə daha çox bədən toxumasının su ilə qidalanması lazımdır.

Bundan əlavə, rütubətli ərazilərdə yaşayan insanlar daha çox su istehlak etməlidirlər, çünki onlar da "hər nəfəsdə daha çox su itirirlər".

Su ehtiyacımızın 20-30 faizini yeməklərdən qarşılayırıq. Əgər siz çox kalorili bir pəhrizdəsinizsə, daha çox su içməlisiniz. Halsi əlavə edir: "Qidaların yüksək kalorili olmasının səbəblərindən biri suyun az olmasıdır".

Beləliklə, nə qədər su içməli olduğumuzu necə başa düşə bilərik? Halsinin bu suala cavabı sadədir: Müəyyən bir məqsədə çatmaqdansa, susuduğunuz zaman su için".

Lakin Halsinin yaşlılar üçün bir istisnası var: "Yaşlılarda susuzluq hissi zəifdir və buna görə də xroniki susuzluğa daha həssas olurlar".

Hər kəsin gün ərzində davamlı olaraq su içməsi lazım olduğu fikrini tamamilə yanlış hesab edən Halsi, "Orqanizm fasilələrlə su istehlakını çox yaxşı qəbul edir" deyir.



Əslində, istirahət zamanı bir litrdən çox su istehlak etmək hətta sağlamlığa zərər verə bilər. Odur ki, başınız qədər böyük olan bu yeni şüşələr üçün çox narahat olmayın.

**Turan**



# Teylor Sviftdən jest

## Gəlirinin 197 milyon dollarını işçilərinə payladı



**Dünya turnesi ilə rekordlar ardınca rekord qıran və mahnıları heç vaxt musiqi hit-paradlarının zirvəsini tərk etməyən Teylor Svift komandasındakı bütün işçilərə böyük jest edib.**

"Şərq" xəbər verir ki, "Forbes"in "Ən Güclü Qadınlar" siyahısında beşinci yerdə qərarlaşan və "Time" jurnalı tərəfindən "İlin adamı" seçilən Teylor Svift bu il dünya turu ilə gündəmdən düşmür.

Musiqi karyerası boyunca aldığı mükafatlarla tarix yazan amerikalı müğənni "Eras" adlı dünya turnesi ilə rekord qırıb.

Müğənninin qastrol səfərinin 2 milyard dollardan çox gəlir əldə etdiyi açıqlanıb.

"People" jurnalı Sviftin bu gəlirin 197 milyon dollarını tur işçilərinə maaşlarından əlavə bonus olaraq payladığını açıqlayıb.

"Eras Tour"da çalışan hər kəsin bu bonusdan faydalandığı bildirilir. Yük maşını sürücüləri, iaşəçilər, alət üzrə texniki işçilər, işıqlandırma, səs, istehsal heyəti və köməkçiləri, dülgərlər, rəqqaslar, orkestr, mühafizə, xoreoqraflar, armaturlar, saç, makiyaj, stilist, fizioterapevt və video çəkiliş qrupu bu bonusdan yararlanıb.

Ötən ilin avqustunda müğənni komandasına 55 milyon dollar mükafat da verib.

149 konsertlik stadion turu bazar günü axşam Vankuverdə başa çatıb. Svift səhnədə komandasına görə minnətdarlığını bildirib.

2024-cü ildə dünyada ən çox dinlənilən mahnılar açıqlanıb. Siyahının başında isə qırdığı rekordlarla adından söz etdirən Teylor Svift gəlir.

Dünyaca məşhur musiqi platforması "Spotify" ən çox dinlənilən ifaçıları, mahnıları, albomları və podkastları açıqlayıb. Teylor Svift "Spotify"də dünyada ən çox dinlənən müğənni oldu.

Dünyada 26,6 milyarddan çox yayımlanan Teylor Svift ardıcıl ikinci il "Spotify"in qlobal miqyasda ən çox yayımlanan müğənnisi olub.

Onu müvafiq olaraq "The Veeknd", Bad Banni, Drake və Billi Eilis izləyir.

**Turan**

## 43 ildə 12 dəfə boşandılar

### Dul pensiyası olaraq 326 min avro qazandılar



**Avstriyada bir cütlük pensiya sistemini aldatmaq üçün 43 il ərzində 12 dəfə boşanaraq evlənib. Ümumilikdə 326 min avro qanunsuz qazanc əldə edən cütlük haqqında istintaq başladılıb.**

"Şərq" xəbər verir ki, ümumilikdə 13 dəfə evləndiyi iddia edilən qadın 1981-ci ildə birinci ərinin ölümündən sonra dövlətdən "dul pensiyası" almağa başlayıb, daha sonra bir il ərzində özündən bir neçə yaş kiçik olan ikinci həyat yoldaşı ilə evlənib.

Altı il sonra ərinin yük maşını sürücüsü olaraq işləməsi səbəbiylə "düzəlməz şəkildə zədələnən" evliliklərini bitirdiyi və bu ayrılıq ilə hər yeni evlilik təxminən üç il davam edən bir evlilik-boşanma dövrü başladığı öyrənilib.

Müstəntiqlərə görə, cütlük əslində, bütün proses boyunca birlikdə yaşamağa davam edib. Lakin onlar formal olaraq ayrılıb barışmaqla Avstriyanın pensiya sığorta sistemini aldadıblar.

Qanuna görə, qadın hər boşandığı zaman dul pensiyası almağa davam edirdi və evləndiyi hər yeni həyat yoldaşı üçün 27 min avro təzminat tələb edə bilərdi. İllərdir bu üsulla pul qazanan cütlüyün ümumilikdə 326 min avro qazandığı məlum olub. Pensiya fondu bu dəfə vəsaiti ödəməkdən imtina etdikdə cütlük məhkəməyə müraciət edir, lakin Avstriya Ali Məhkəməsi mart ayında cütlüyün qanunun boşluqlarından istifadə etməsinin ədalətsiz olduğuna dair qərar verib.

Məhkəmədən sonra polis cütlük haqqında "ciddi fırıldaqçılıq"da ittiham edərək istintaqa başlayıb. Maraqlıdır ki, onların 12-ci boşanması səlahiyyətlilər tərəfindən tanınmadığı üçün cütlüyün hələ də rəsmi nikahlı hesab edildiyi öyrənilib.

**Turan**

## Sevgilisindən ayrılan Serenay mutlu görünür



**Türkiyənin "Elle" jurnalının yeni nömrəsi işıq üzü görüb.**

Yeni buraxılışın qəhrəmanı aktrisa Serenay Sarıkaya olub. O, müxtəlif obrazlarda kamera qarşısında poz verib.

*Qeyd edək ki, Serenayın müğənni sevgilisi Mert Demirdən ayrıldığı iddia edilib. Aralarındakı münasibəti Serenayın bitirdiyi bildirilib.*